www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 avqust 2018-ci il Çərşənbə axşamı № 177 (7066) Qiymәti 60 qəpik

**Xəbər**

## Tarif Şurası Aİ-92-nin bahalaşacağı iddialarına nöqtə qoydu

yazısı səh.6-da

**Gündəm**

## Azərbaycan prezidenti Rusiyaya gedir



Rusiyanın yeni səfiri Mixail Boçarnikov: "Ölkələr arasında iqtisadi və humanitar sahələrdə sənədlər paketinin imzalanması gözlənilir"

yazısı səh.6-da

# PUTİN PAŞİNYANLA MÜHARİBƏYƏ BAŞLAYIR - BAKININ "RUS NATO-SU"NA QOŞULMASI...

Rusiya KİV-i Azərbaycanın KTMT-yə mümkün üzvlüyü ətrafında başlayan müzakirələrdən yazdı; düşmən ölkədə əksinqilab təlaşı artır; **erməni nəşri:** "Erməni xalqı döyüşü qəbul edəcək, ölkənin Kremlin qəyyumluğuna qayıdışına imkan verməyəcək..."




yazısı səh.8-də

### Xəzərin statusu çözüldü, çimərik problemi isə qalır

yazısı səh.5-də

### Müxalifətin payız planları: bələdiyyə seçkiləri, təşkilatlanma...

yazısı səh.6-da

### Merkel Qafqazları "fəth" etməyə gəlir - Almaniya diplomatiya sərhədlərini genişləndirir

yazısı səh.9-da

### ABŞ-ın dünya nəhəngi şirkətləri və büdcələri-siyahı

yazısı səh.10-da

### İrəvanın Kremlə qarşı riskli taktikası - Qarabağı nə gözləyir?

yazısı səh.11-də

### İçində insan əti aşkarlanmış kolbasalar Azərbaycana gətirilə bilər-iddia

yazısı səh.13-də

### Qum-çınqıl işinə görə tutulanların əmlakına həbs qoyulub

yazısı səh.14-də

### "Sanksiyalar Azərbaycana təsir etməyəcək"-politoloq

yazısı səh.3-də

### "Qarabağ"a dəstək vaxtı və Rəşada münasibətdə "nemes" olmayaq...

yazısı səh.15-də

### "Qaçan dustaqlar işi"ndə generalın bacısı oğlu ifadə verdi

yazısı səh.14-də

## Bakıda tikintilərlə bağlı şok yoxlamalar başlayıb

BŞİH-in indiyədək tikintiyə verdiyi bütün icazə sənədləri təftiş edilir; bəzi bina tikintiləri artıq dayandırılıb, hasarlar söküb

yazısı səh.5-də



### Deputatlardan Məmmədyarovun nazirliyinə ittihamlar

yazısı səh.3-də



### Ermənilər almanları Azərbaycandan necə sürgün etdirdi - tarixçi sensasion faktlar açıqladı

yazısı səh.7-də



*Akif Əli:*

### "Baş nazir 8:30-dan işdə olur, Abutalıbov isə..."

yazısı səh.4-də




## Hansı tələbələr təhsil haqqından azaddır?

**Təhsil Nazirliyi ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin hansı hallarda ödənişdən azad olunduğunu açıqlayıb. Təhsil Nazirliyinin sektor müdiri Cəsarət Valehov jurnalistlərə bildirib ki, mövcud qanunvericiliyə uyğun olaraq, Azərbaycanın ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan bir sıra kateqoriyalara aid tələbələr təsdiqedici sənədlər təqdim etdikləri halda onların təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.**

Həmin kateqoriyalara dövlət ali təhsil müəssisələrində təhsil alan məcburi köçkün və şəhid ailəsi statusunu almış ailənin üzvlərindən olan tələbələr, dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrində əyani təhsil alan 18 yaşına qədər hər iki valideynini itirmiş, valideyn himayəsindən məhrum olmuş və ya onlara bərabər tutulan (bir valideynini itirmiş, digər valideyni I və ya II qrup əlil olan) 23 yaşınadək tələbələr, 2014/2015-ci tədris ilindən başlayaraq, Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların ali təhsil müəssisələrində təhsil alan övladları daxildirlər.

## Banklar gücləndirilmiş iş rejiminə keçir

**Maliyyə Bazarlarına Nəzarət Palatasının tövsiyəsi ilə Qurban bayramı ilə əlaqədar 22 və 23 avqust qeyri-iş günləri ərzində əhalinin və çoxsaylı turistlərin bank xidmətlərindən rahat faydalanması üçün bir sıra bankların filial və şöbələri gücləndirilmiş iş rejimində çalışacaq.**

Palatadan modern.az-a verilən məlumata görə, bayram günləri ərzində valyuta mübadiləsi xidmətlərinə rahat çıxışı təmin etmək məqsədilə 22 bankın 56 filial və şöbəsi müştərilərə xidmət göstərəcək. Bakı şəhərində yerləşən 6 bankın 2 filialı və 5 şöbəsi 24/7 rejimində işləyəcək.

## Tonlarla Azərbaycan gavalısını niyə Rusiyaya buraxmadılar?

**Dağıstan Respublikasının Baytarlıq və Fitosanitariya üzrə Federal Xidməti bəzi məhsulların Azərbaycandan Rusiyaya keçirilməsinə icazə verməyib. Bununla bağlı idarənin mətbuat xidməti məlumat yayıb.**

Səbəb kimi əmtəə yüklərində karantin zərərli maddə olan Şərq güvəsinin aşkarlanması göstərilib.

Buna görə də "Yaraq-Qazmalar" keçid məntəqəsində aparılan yoxlamalar zamanı 37,5 ton gavalı geri qaytarılıb.

## UEFA ötən mövsümün ən yaxşı futbolçusu adına namizədləri açıqlayıb

**2018 mövsümünün ən yaxşı futbolçusu adına namizədlər açıqlanıb. "Report" UEFA-nın rəsmi saytına istinadən xəbər verir ki, siyahıda 3 oyunçu yer alıb. Bunlar İspaniya təmsilçisi "Real Madrid"in yarımmüdafiəçisi Luka Modriç, yay fasiləsində "kral klubu"nu İtaliya "Yuventus"un dəyişən hücumçu Kriştianu Ronaldu və İngiltərənin "Liverpul" komandasının forvardı Məhəmməd Salahdır.**

Qeyd edək ki, qalibin adı avqustun 30-da Çempionlar Liqasının qrup mərhələsinin püşkatma mərasimində açıqlanacaq.

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" Media Qrupu "Yeni Müsavat" qəzetinin əməkdaşı Sevinc Qurbanovaya nənəsi Pəri xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Məktəbli dəstlərinin satışı ilə bağlı yenilik

**Builki tədris mövsümündə məktəbli formalarının qiymətində artım yoxdur, lakin valideynlərin istək və müraciətləri nəzərə alınaraq bəzi dəyişikliklər edilib.**



Bu barədə virtualaz.org saytına Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin rəisi Etibar Əzimov bildirib.

Onun sözlərinə görə, indiyədək məktəbli formaları yalnız dəst halında satılırdı, bu isə valideynlərin narazılığına səbəb olurdu. Məsələn, valideyn şalvar, yaxud pencək almaq istəyirdi, amma formanı dəst almağa məcbur idi. Bu ildən isə yalnız ehtiyacı olan geyimi ala biləcəklər. Eyni zamanda bu ildən ibtidai sinif şagirdlərinə jiletlər satılmayacaq. Yuxarı sinif şagirdləri üçün jilet geymək məcburi deyil.

E.Əzimov əlavə edib ki, valideynlərin əlavə pul xərcləməməsi üçün məktəbli formalarının modellərində, dizaynında dəyişiklik edilməyib. Hazırda tikiş evinin 10 satış məntəqəsində 4 model olmaqla ibtidai siniflər üzrə 40 manata, yuxarı siniflər üzrə 46 manata məktəbli dəstləri satışdadır. Həmçinin köynək 8 manata, şalvar 42 ölçüyədək 15 manata, 54 ölçüyə kimi 18 manata, pencək 25 manata, ibtidai sinif şagirdləri üçün yubka 15 manata, böyük siniflər üçün aşırma yubka 18 manata satılır.

**Etibar Əzimov saxta məktəbli formalarının satılması ilə bağlı problemlə üzləşdiklərini deyərək valideynləri ehtiyatlı olmağa çağırıb:** "Bakı Tikiş Evinin həm parça, həm də hazır dəstlərlə bağlı sertifikatı var, geyimlərin təhlükəsizlik və keyfiyyətinə görə cavabdehdir. Bəzi işbazlar isə fabrikin forma və dizaynından istifadə edərək Çindən məktəbli dəstləri sifariş verirlər, üzərinə də fabrikin əmtəə nişanını yapışdırırlar".

Keyfiyyətsiz parçadan hazırlanan saxta məktəbli dəstləri bazarda 32-35 manat arası təklif olunur. E.Əzimov söyləyib ki, fabrikdə 800 qadın çalışır, işbazlar həm də bu qadınların əməyinə, dolanışığına mane olurlar. Valideynlər saxta formaların 5-6 manat ucuz olmasına aldanmasınlar.



## Peykimizin buraxılış tarixi dəyişdirildi

**Azərbaycanın "Azerspace-2/Intelsat 38" ikinci geostasionar peykinin buraxılışı 2018-ci il sentyabrın 7-nə planlaşdırılıb.**

Bu barədə "Arianespace" şirkətinin bəyanatında deyilir.

"Azerspace-2/Intelsat 38" peyki "Ariane 5 ECA" raket-daşıyıcısı ilə buraxılacaq.

Həmin raket-daşıyıcı Azərbaycanın peyki ilə yanaşı "Horizons 3e" peykini də aparacaq («Trend»).

Qeyd edək ki, daha əvvəl "Azerspace-2/Intelsat 38" peykinin sentyabrın 5-də fəzaya buraxılacağı nəzərdə tutulmuşdu.

"Azerspace-2/Intelsat 38" 45 dərəcə şərq uzunluğunda geostasionar orbitə çıxarılacaq. Onun xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxil olacaq.




## "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzləri iki gün işləməyəcək

**Qurban bayramı ilə əlaqədar avqustun 22-23-də "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günüdür. Bu barədə "Report"a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnformasiya təminatı şöbəsindən məlumat verilib.**

Bildirilib ki, avqustun 24-dən vətəndaşlar mərkəzlərə müraciət etməklə müvafiq xidmətlərdən yararlana bilərlər.

Qeyd edək ki, hazırda 13 "ASAN Xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba və Mingəçevirdədir.

Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

## Bu gün hava necə olacaq?

**Azərbaycan ərazisində avqustun 21-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, avqustun 21-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir.**

Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-23, gündüz 25-30, Bakıda gecə 20-22, gündüz 27-29 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 762 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

## DİN-in idarə rəisi vəfat etdi

**Daxili İşlər Nazirliyinin (DİN) Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi polis polkovniki Əbdül Zərgərli dünyasını dəyişib.**

"Report"un xəbərinə görə, Ə.Zərgərlinin qəfil vəfat etməsinə səbəb ürəktutma olub.

Allah rəhmət eləsin!

## Qurban bayramı ilə əlaqədar qatarlara əlavə vaqonlar qoşulacaq

**Qurban bayramı ilə əlaqədar dəmir yolunda gücləndirilmiş iş rejimi tətbiq olunub.**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti İctimaiyyətlə əlaqələr şöbəsindən virtualaz.org-a verilən məlumata görə, bayram və istirahət günlərində sərnişin axınının artması ilə əlaqədar rahat və ucuz nəqliyyat vasitəsi kimi vətəndaşlarımız dəmir yolunun xidmətindən istifadəyə üstünlük verirlər.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin daşımaları Departamentinin kollektivi müqəddəs Qurban bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışır. Departamentin kollektivi sərnişin qatarlarında xidmət mədəniyyətinin yüksəldilməsi üçün bütün qüvvələri səfərbər edib.

Qurban bayramı günlərində sərnişin sıxlığının artması ilə əlaqədar, ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün tələbata uyğun olaraq əlavə vaqonların qoşulması təmin edilir.

Qurum bir daha sərnişinlərin nəzərinə çatdırır ki, sərnişin qatarlarına bilet satışı 10 gün qabaqcadan, əlavə vaqonlara isə bilet satışı həmin vaqonlar qatara qoşulan gün həyata keçirilir.

## Köçəryanın evində və ofisində axtarış aparılıb

**2018-ci il martın 1-də İrəvandakı hadisələr üzrə iş çərçivəsində Ermənsitanın sabiq prezidenti Robert Köçəryanın evində və ofisində axtarış aparılıb.**

Bu barədə Ermənistan Xüsusi İstintaq Xidməti məlumat yayıb.

Təfərrüatlar barədə məlumat verilmir («Trend»).

Xatırladaq ki, Xüsusi İstintaq Xidməti iyulun 26-da Köçəryana konstitusiya quruluşunun devrilməsində iştiraka dair ittiham irəli sürmüş, bir gün sonra isə o, 2 ay müddətinə həbs edilmişdi. Lakin Ermənistan Apelyasiya Məhkəməsi R.Köçəryanın sabiq prezident toxunulmazlığına əsaslanaraq avqustun 13-də onun həbsdən azad edilməsi barədə qərar qəbul edib.




# Deputatlardan Məmmədyarovun nazirliyinə ittihamlar

**Son zamanlar Avropada formalaşan "söyüş müxalifəti"nin fəallaşması barədə "Yeni Müsavat"a danışan Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı Azərbaycan Xarici İşlər Nazirliyini günahlandırıb. O, XİN-in bu istiqamətdə gördüyü işləri qənaətbəxş hesab etmir.**

**Sitat:** "Bununla bağlı nazir öz addımlarını atmalıdır. Demirəm ki, bunu hansısa formada açıq edə bilər. Diplomatik kanallarla Almaniya və başqa ölkələrin rəsmilərinə çatdırıla bilər ki, Azərbaycanın atributları tənqid olunur, ölkəmizə böhtanlar atılır. Avropa ölkələrinə gedərək özlərini siyasi mühacir adı altında təqdim edib bu cür tərbiyəsiz hərəkət edənlərin müxalifətlə heç bir əlaqəsi yoxdur. Onlar bu fəaliyyətlə Azərbaycan xalqına qarşı mənəvi terror həyata keçirirlər. Xalqımız söyüşkən deyil, yüksək intellektə, mədəniyyətə sahibdir. Bu cür insanlar xalqımızın dəyərlərindən kənarda olaraq almış olduqları mədəniyyətə uyğun şəkildə belə hərəkətlərə yol verirlər. Qətiyyən şübhə etmirəm ki, onlar ermənilərdən pul alırlar. Ermənilərin qucağında oturub, onların maliyyəsi ilə qidalanan insanlardır. Belə şəxslərə qarşı bütün səviyyələrdə qanunlar çərçivəsində mübarizə aparılmalıdır. Bunun ən böyük funksiyası da Azərbaycan Xarici İşlər Nazirliyinin üzərinə düşür".

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli dolayısı ilə həmkarının fikirlərinə dəstək verdi:** "Almaniya və digər ölkələrdə mövcud olan müxalifətin söyüş makinası daim fəaliyyətdə olub. Angela Merkelin Azərbaycana səfəri öncəsi onlar üçün bu xüsusilə əhəmiyyət kəsb edir. Çünki Merkel tək Almaniyanı deyil, bəlkə də bütövlükdə Avropa İttifaqını təmsil edir. O, sözünün xüsusi çəkisi olan bir xanım liderdir. Ona görə onun səfəri ərəfəsində onun müşavirləri və digər şəxslər vasitəsilə xüsusi bir rəy yaratmaq istəyirlər, insan haqlarının pozulması və digər məsələlərlə bağlı. Şübhəsiz ki, Fəzail bəyin sözlərində həqiqətlər var. Bu ondan ibarətdir ki, bizim Xarici İşlər Nazirliyimiz məsələlərə operativ münasibət sərgiləyə bilmir. Ola bilsin ki, həmin müxalifətlə bağlı Azərbaycan tərəfindən gizli danışıqlar, yazışmalar və müraciətlər var. Amma ictimaiyyətə məlum olan bir münasibəti hələ görə bilməmişik. Məsələn, Xarici İşlər Nazirliyi, səfirlik nota göndərə, izahat tələb edə bilər, yaxud onların alman qanunları ilə cəzalandırılmasını aktuallaşdırmaq mümkündür. Çox təəssüf edirəm ki, hələ də belə halların şahidi olmamışıq. Bəzi vaxtlarda xarici ölkələrə gedən Azərbaycan nümayəndələri ilə həmin müxalifətçilər arasında da müəyyən konfliktlər yaşandı. Bütün bunlara Xarici İşlər Nazirliyi daim reaksiya bildirməyə ləngidi. Ona görə də hesab edirəm ki, Xarici İşlər Nazirliyi çevik olmalıdır. Klassik bir tərif var ki, hər bir ölkənin daxili siyasətinin xarici siyasət bilavasitə davamıdır. Hər bir dövlətin onlarla nazirliyi ola bilər, amma xarici siyasəti təmsil edən cəmi bir qurum olur. Ona görə onun məsuliyyəti həddsiz dərəcədə böyükdür. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə müəyyən axsamalar var. Düşünürəm ki, bu cür təpkilər onların işini korrekt edə bilər. Onlar da daha optimal yanaşma sərgiləyərlər".



**Tahir Kərimli:** "Xarici İşlər Nazirliyimiz məsələlərə operativ münasibət sərgiləyə bilmir"



**Fazil Mustafa:** "Xarici İşlər Nazirliyi fəaliyyətsizlik göstərsə, ölkəmizə daha çox xeyir verə bilər"

**F.Ağamalının digər həmkarı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bu tipli məsələlərdə Xarici İşlər Nazirliyinin kadr siyasətinin böyük əhəmiyyətinin olduğunu söylədi:** "Bu siyasət, ümumiyyətlə, bəyənilməsi səviyyədə deyil. Orada kadr sistemində, xüsusilə Avropa məkanında daha keyfiyyətli, hazırlıqlı insanların Azərbaycanı təmsil etmələri ilə bağlı problemlər bizim tərəfimizdən dəfələrlə dilə gətirilib. Amma "söyüş müxalifəti" təkcə Avropa ilə bağlı deyil. Mədəni insanlar müxalifətçilik də edə bilərlər, mədəni şəkildə də fəaliyyətlərini davam etdirərlər. Amma insanın ümumi dünyagörüşü aşağı səviyyədə olanda söyüşdən başqa leksikonunda ifadə tapa bilmir. Nəticədə bu üslubda mübarizə aparmaq istəyir. Bu da heç bir halda təqdir oluna biləcək üslub deyil. Avropada kifayət qədər mədəni insanlar da var ki, müxalifət mövqeyindədirlər, amma tənqidlərlə, arqumentlərlə fikirlərini çatdırmağa üstünlük verirlər. Buna da cəmiyyətimizdə heç bir irad bildirilə bilməz. Hər kəsin fərqli fikri ola bilər. Məsələn, eyni tərbiyəsizlik Rusiyada da var. Təsəvvür edin ki, özünə Tolışı ləqəbi götürən şəxs Məhəmməd Əmin Rəsulzadəni olmazın sözlərlə təhqir edir. Elçibəyi də təhqir edən statuslar paylaşır. Bu tərbiyəsizin talış xalqının maraqlarına nə dəxli var? Bu insan, sadəcə, tərbiyəsizdir. Xalqının problemlərini qaldırırsansa, bunu mədəni şəkildə edə bilərsən. Lakin o şəxs söyüş söyürsə, demək, bu insanın tərbiyə problemi var. Xaricdə olanları bu kateqoriyalarla bölmək lazımdır. Hamını ucdantutma bir formada qiymətləndirmək doğru olmazdı. Biz çalışmalıyıq ki, müxalifətin burada və orada dili mədəniləşsin. Azərbaycan Xarici İşlər Nazirliyi fəaliyyətsizlik göstərsə, ölkəmizə daha çox xeyir verə bilər".

Məsələ ilə bağlı Azərbaycan XİN-in mövqeyini almağa çalışsaq da, mümkün olmadı. Zənglərimizə cavab verən olmadı.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Sanksiyalar Azərbaycana təsir etməyəcək"-politoloq

## Qabil Hüseynli: "Dünya düzənini yenidən yaratmağa çalışan qüvvələr var"

**ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyalar hazırlaması ilə bağlı məlumatlar yayılıb. Belə ki, məlumatlara görə, ABŞ prezidenti Donald Trampın administrasiyası yaxın bir neçə həftə ərzində Rusiyanın "Şimal axını-2" qaz kəməri layihəsində iştirak edən şirkətlərə qarşı yeni sanksiyalar tətbiq edəcək.**

Bildirilir ki, hələlik Vaşinqtonda yekun qərar verməyiblər. 2017-ci ildə Rusiyanın ABŞ seçkilərinə müdaxiləsinin üstü açılandan sonra Konqres prezident Trampa "Şimal axını-2" qaz kəməri layihəsində iştirak edən şirkətlərə və şəxslərə qarşı sanksiyaların tətbiq edilməsi səlahiyyətini verib.

Tramp isə qaz kəməri layihəsini əngəlləmək üçün bu səlahiyyətlərdən istifadə etməyə hazırlaşır. "The Wall Street Journal"ın yazdığına görə, sanksiyalar qaz kəmərinin tikintisini dayandırmağa hesablanıb, çünki ABŞ-da hesab edirlər ki, bu kəmər Avropanın Rusiya qazından asılılığını artıracaq.

Məlumat üçün qeyd edək ki, "Şimal axını-2" kəmərinə əsasən Rusiyadan Almaniyaya Baltik dənizinin dibindən ümumi tutumu ildə 55 milyard kubmetr olmaqla iki kəmər qolunun çəkilməsi nəzərdə tutulur. Layihənin dəyəri 10 milyard avroya yaxındır.

ABŞ və bir sıra Avropa ölkələri bu layihəyə qarşı çıxır. Birləşmiş Ştatlar Rusiya qazına alternativ kimi Azərbaycanın "Şahdəniz" yatağının qazını Avropaya nəql etməli olan Cənub Qaz Dəhlizinə güclü dəstək verir.



**"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirib ki, bütün bu sanksiyalar Azərbaycana heç bir təsir etməyəcək:** "Bu sanksiyaların tətbiqinin müəyyən bir əsası olduğunun fikrindəyəm. Çünki Putinin Merkellə görüşündə hələ geniş yayılmasa da belə bir fikir var ki, Amerikanın təkidlərinə baxmayaraq, Almaniya Baltik dənizinin dibindən ikinci qaz kəmərinin çəkilişinə razılıq verir. Bu isə Amerikanın sanksiyalar siyasətinin ciddi surətdə sarsıdılması demək olacaqdı. Yəqin razılıq verilib ki, Amerika tərəfi də ciddi şəkildə əl-ayağa düşüb və Rusiyanın qaz kəmərinin çəkilişinə qarşı sanksiyalar tətbiq edir. Burada bir qanunauyğunluq da axtarmaq mümkündür. Məsələn, Rusiya Xəzərin dibindən türkmən qazının Cənub Qaz Dəhlizi layihəsinə birləşdirilməsinə uzun müddətdir ki, müqavimət göstərir. Hətta təhdid dilində danışıq. Xəzərin statusu ilə bağlı konvensiyadan sonra da göstərir ki, ekoloji faktorları nəzərə alaraq Transxəzər qaz kəmərinin çəkilməsi üçün təkcə Türkmənistan və Azərbaycanın deyil, 5 dövlətin razılığı olmalıdır. Bu da yeni bir əngəldir. Rusiyanın özü isə Qara dənizin dibindən Türkiyəyə "Mavi axın" layihəsini çəkib. İndi də ikinci bir xətti də Qara dənizin dibindən çəkib, Türkiyə ərazisindən keçirərək Avropaya aparmaq niyyətindədir. Bundan başqa da Baltik dənizindən ikinci qaz kəmərini də çəkməyə hazırlaşır. Bütün bu işləri görən zaman nə Qara dəniz, nə də Baltik dənizinin statusu, ekologiyası ilə bağlı qayğı çəkənlər ortaya çıxmayıb. Rusiya özünü bütün dənizlərin sahibi kimi aparır və heç kimə də məhəl qoymur".

**Politoloq bildirib ki, dünya artıq supergüclərin rəqabət meydanına çevrilib:**

"Dünya düzənini pozub, onu yenidən yaratmağa çalışan qüvvələr var. Bu qüvvələr içərisində əlbəttə ki, Amerikanın da adını çəkmək olar. Amerika indiki dünya düzəninin banisidir. Ancaq yeni dünya düzənini pozmağa çalışan Çin, Rusiya kimi dövlətlər mövcuddur. Bu dövlətlər kifayət qədər imperialist ədaları ilə çıxış edirlər. Amerika da nəticədə bu kimi dövlətlərə qarşı söylədiyimiz sanksiyaları tətbiq edir. Demək olar ki, bu dövlətlər dünyaya dəyər gətirmək, ümumbəşəri dəyərlər əsasında dünya düzənini dəyişmək yox, sadəcə olaraq, imperialist istəklərə söykənən, "Gücün varsa, hakimiyyətin də var" kimi şüarlardan çıxış etməyə çalışırlar. Bu isə dünyanı xaosa apara bilər. Trampın bəzi məsələlərdə ifratçılığını qəbul etmirəm. Ancaq bununla yanaşı, Amerikanın dünyaya dəyər gətirmək baxımından müəyyən rol oynaması qənaətindəyəm. Rusiya və Çin isə dünyaya heç bir dəyər gətirmək gücündə deyillər. Söykəndikləri ideoloji millətçilik bəzi yerlərdə şovinizmə qədər gedib çıxır. Başqa xalqa təkəbbürlü, lovğa münasibət göstərirlər. Kiçik xalqları öz təsir zonalarında saxlamaq və onların ərazilərindən özlərinin strateji niyyətləri reallaşdırmaq üçün istifadə edirlər. Bu, 21-ci əsrin məntiqinə uyğun deyil. Baş verənlər 20-ci əsrin əvvəllərində dünyanı yenidən bölüşdürmək uğrunda dövlətlər arasındakı mübarizəyə bənzəyir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018



# Azərbaycanın KTMT-də Ermənistanı əvəz etməsinə lüzum varmı?..

**Hüseynbala SƏLİMOV**

**Rusiya ilə Ermənistan arasındakı indiki münasibətlər fonunda Azərbaycanın regional geosiyasi seçimi və hərbi-siyasi statusu ətrafındakı mübahisələr əslində apriori olaraq predmetsiz və zəminsiz sayılmalı idi.**

Amma yox, bizim "rusofillər qvardiyası" Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya Birliyi (AB) ilə bağlı söhbətləri daim gündəmdə saxlayır və onları aktuallaşdırmaq üçün ən kiçik fürsəti belə əldən vermirlər.

Arqumentlər isə əvvəlki kimi dəyişməz qalır, burada hansısa yenilik yoxdur, həmişə olduğu kimi, Azərbaycanın qeyd olunan təşkilatlarda üzv olacağı təqdirdə guya Rusiya siyasətinin əqrəblərinin Bakıya tərəf dönəcəyi və Kremlin Qarabağı bizə qaytaracağı haqqında artıq yorucu dərəcədə çeynənmiş olan "fikir"lər səslənir.

Bu adamlar adicə bir faktı heç cür nəzərə almaq istəmirlər ki, 1993-99-cu illərdə Azərbaycan KTM-nin iştirakçısı olub, 1993-cü ildən isə MDB üzvü kimi qalmaqda davam edir. Bu müddət ərzində cəmi bir kənd azad olunub və bir də yüksəklik - o da öz ordumuzun səyləri sayəsində...

Bəs belə olan bir təqdirdə yuxarıda səslənən "təklif"lərin hər hansı bir real məzmunu varmı? Məsələ də burasındadır ki, yoxdur. Amma onlar illərdir ki, səslənməkdə davam edir və hətta siyasətdən uzaq olan və bir az da "keçmiş çağlar" üçün nostalji keçirən insanları öz cazibəsinə sala bilir.

Onların indi yeni bir intensivliklə səslənməsi də təsadüfi deyil və region üzrə cərəyan edən proseslərlə, xüsusən də Ermənistan-Rusiya müstəvisində baş verən olaylarla bağlıdır. Ən maraqlısı budur ki, hələ bu müstəvidə konkret bir olay baş vermir, sadəcə, Kreml və onun sözçüləri israrla N.Paşinyanı Qərb yönümlü bir siyasətçi kimi təqdim edirlər, xüsusən də onun tərəfindən kriminal Qarabağ hərbi-siyasi klanına qarşı hüquqi təqiblərə start veriləndən sonra bu istiqamətdə, ümumiyyətlə, nəzərə çarpacaq dərəcədə, hətta izafi bir canfəşanlıq göstərirlər.

Demirik ki, Paşinyanın Qərbə qarşı hər hansı rəğbəti və ya meyli yoxdur. Əlbəttə ki, var. Nəyi olmasa da, bir şeyi o, çox gözəl anlayır ki, hətta silahı da Rusiyadan kreditlə alan Ermənistana "ikinci bir nəfəs" və real iqtisadi dəstək lazımdır. Bunu da o, Qərblə münasibətləri əvvəlki dövrlə müqayisədə bir az dərinləşdirməkdə görür. Amma hələ ki Qərb də onu anladır ki, inqilaba görə hər hansı hədiyyə olmayacaq və İrəvana o halda dəstək veriləcək ki, Paşinyan hökuməti konkret siyasi və iqtisadi islahatlara başlayacaq. Bir sözlə, Kremlin təşvişinə rəğmən Qərb hələ ki Ermənistana yürüş və ya dəstək aksiyası təşkil etməyə tələsmir.

Paşinyan hakimiyyətə gələndən bir dəfə NATO-nun iyul ayında keçirilən sammitinə qatılıb, bir dəfə də erməni hərbçiləri Gürcüstanda keçirilən təlimlərdə iştirak ediblər. Əslində bu, əvvəlki dövrlərdə də olurdu, çünki digər iki Qafqaz respublikası kimi Ermənistan da vaxtilə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuşdu. Sammitlərə gəldikdə səhv etmiriksə, S.Sarkisyan da onların işində iştirak edirdi.

Bunları ona görə deyirik ki, Paşinyan böyük hesabla hələ heç nə etməyib. Bəs onda bu hay-küyə səbəb nədir? Sadəcə, o, Kremlin bu ölkədəki "quyruğ"unu tapdayıb; təsadüfi deyil ki, Moskvanın isterikası əvvəldə qeyd etdiyimiz kimi, R.Koçaryana və Yuri Xaçaturova qarşı hüquqi təqiblər başlayandan sonra pik həddinə çatdı. Ən əsası da budur ki, Paşinyan da tez başa düşdü ki, Koçaryanı azad etməsə Kremlin siyasi hikkələrinin başqa nəticələri ola bilər.

Ona görə də aydındır ki, Koçaryan buna görə azad edildi, hərçənd, erməni prokurorları bunu məhkəmələrin yanlış bir qərarı kimi yozurlar. Üstəlik, Paşinyanın 17 avqust mitinqində kifayət qədər effekt yaratması, Ermənistandakı və Kremldəki opponentlərinə yetərincə ictimai dəstəyə malik olduğunu nümayiş etdirməsi belə bizi bu ehtimaldan çəkindirmir.

Xüsusən də general Xaçaturova qarşı prosesin başlanması hətta MDB-nin yüksək dairələrində müzakirəyə səbəb oldu. İndi ən əsas detal budur ki, "məxməri inqilab"dan sonra bir anlığa şoka düşən Qarabağ klanı yeni hamləyə hazırlaşır və hətta R.Koçaryanın yenidən siyasətə qayıtması haqqında söhbətlər gəzir.

Qərəz, Ermənistandakı vəziyyət təxminən belədir. Ona görə də nəticələrə tələsməməliyik: hələ ki nə Ermənistan KTMT-nı tərk edib, nə də başqa hadisə baş verib. Ona görə də fantaziyalarımıza meydan verməyə hələ tələsməyək. Azərbaycanın bu vaxta qədərki hərbi - siyasi seçimi ən optimal variantdır və Kreml də buna dözümlə yanaşır, ona görə ki, münasibətlərdə stabillik var. Bu stabillik isə regiondakı qeyri-müəyyənlik fonunda heç də az önəm kəsb etmir...

**Novruz Məmmədovun baş nazir vəzifəsinə təyin olunmasından 100 gündən bir qədər artıq vaxt keçib. Ötən müddət ərzində yeni baş nazirin fəaliyyəti ilə bağlı "Report"un suallarını Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Əməkdar jurnalist, fəlsəfə doktoru, yazıçı-publisist Akif Əli cavablandırıb. Müsahibədən bəzi hissələri təqdim edirik.**



# "Baş nazir 8:30-dan işdə olur, Abutalıbov isə..."

## Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri: "Novruz Məmmədov xarakter etibarilə səmimi insandır"

**Novruz Məmmədovun iş qrafiki necədir? İşə gəlmək, getmək, istirahət...**

- Baş nazir hər gün səhər saat 8:30-dan işdə olur. Axşam isə yalnız nəzərdə tutulan işlər başa çatandan sonra çıxır. Şənbə günü də işləyir. Ümumiyyətlə, deyim ki, dövlət qulluqçuları üçün iş qrafiki şərtidir, onlar bayram və istirahət günləri də işləyirlər. Məmurları haqq-nahaqq çox tənqid edirlər, amma o insanlar bu cür işləyirlər. Pafoslu səslənsə də, xalq üçün, dövlət üçün, Vətən üçün çalışırlar, bütün ölkə üzrə hərə öz sahəsində müvafiq tapşırıqların icrası ilə məşğul olur.

**- Novruz Məmmədov baş nazir təyin edildikdən sonra Nazirlər Kabinetinin fəaliyyətində operativlik hiss olunur...**

- Prezidentin yuxarı icra orqanı kimi Nazirlər Kabineti ölkə miqyasında iri həcmli, çox məsul vəzifələri yerinə yetirir, aidiyyəti tapşırıqların icrasına nəzarət edir, iqtisadi həyatın bütün sahələri üzrə normativ hüquqi bazanın hazırlanması, koordinasiya və tənzimləmə prosesləri ilə məşğul olur. Bayaq haqqında danışdığımız yeni iş qaydasının təsdiq edilməsi barədə prezidentin fərmanı da Nazirlər Kabinetinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyır. Və bu fərmana əsasən Nazirlər Kabinetin-



də aparılan dəyişikliklər, əlbəttə, keyfiyyətə təsirini göstərməyə bilməzdi. NK strukturu yeniləndikcə, əməkdaşlar da müasir dövrün tələblərinə uyğun olaraq daha operativ, səmərəli fəaliyyət variantları əsasında çalışırlar.

**- Bu yaxınlarda Baş nazirin Katibliyinin rəisi vəzifəsinə də yeni təyinat oldu. Həmin vəzifə sahibinin əsas işi nədən ibarətdir?**

- Baş nazirin Katibliyi əsasən baş nazirin tapşırıqlarının yerlərə çatdırılması, icrasının təşkili və icraya nəzarət funksiyalarını yerinə yetirir. Katibliyə çoxsaylı müraciətlər daxil olur və onların hər biri diqqətlə öyrənilir, araşdırılır. Prezident Administrasiyasından, mərkəzi və yerli icra orqanlarından daxil olan sənədlər, məktub və müraciətlər əsasında müvafiq araşdırmalar aparır, nəticələri barədə baş nazirə məlumat verir, tapşırıqlar hazırlayır və s. Baş nazirin köməkçiləri katiblikdə təmsil olunurlar. Əvvəllər katibliyin rəhbəri vəzifəsi vakant idi. Novruz müəllim katibliyin rəisi vəzifəsinə gənc və perspektivli kadr olan Ərəstü Həbibbəylini təyin edib.

**- Hazırda Nazirlər Kabinetində boş qalan vəzifə varmı?**

- Əsas aparıcı vəzifələr üzrə demək olar ki, vakansiya yoxdur.

**- Adətən yeni vəzifəyə təyin olunan şəxslər özlərinə yeni köməkçilər götürür. Cənab Novruz Məmmədov isə sələfinin köməkçiləri ilə işləməkdə davam edir...**

- Baş nazirin köməkçisi vəzifəsi "Dövlət qulluğu haqqında" Qanuna əsasən siyasi yox, inzibati vəzifə təsnifatına daxildir. Ona görə də əvvəlki baş nazirlərlə işləyən köməkçilərin bu gün işini davam etdirməsi qanunla tənzimlənir. Digər yandan, qeyd etdiyim kimi, Novruz Məmmədov dövlət işində böyük təcrübəyə malik, uzun illər ulu öndərin və möhtərəm prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında işləmiş şəxs kimi idarəetmə prinsiplərinə çox yaxşı bələddir. O, ölkənin kadr potensialı ilə yaxından tanışdır, belə demək mümkünsə, kimin kim olduğunu yaxşı bilir. Özü də xarakter etibarilə səmimi insandır, geniş məlumatlı, tanınmış ziyalıdır. İnsanlarla münasibətində, məsələlərə baxışında ədalət normalarına, qanunun aliliyinə söykənməyi zəruri sayır. Əsas odur ki, işçi intizamlı, zəhmətkeş, bacarıqlı olsun.

**- Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı, baş nazirin müavini Hacıbala Abutalıbovun iş prinsipi necədir?**

- Hacıbala Abutalıbov alimdir, Heydər Əliyev ideyalarına son dərəcə sadiq insandır. Siyasi fəaliyyətində böyük xidmətləri olub. Sonra icra strukturlarında işləyib, indi yenidən baş nazirin müavini vəzifəsinə təyin edilib. Hacıbala müəllim səmimi, ünsiyyətdə rahat insandır. Əməkdaşlar xüsusi olaraq qəbula yazılmadan ona maneəsiz müraciət edə bilirlər... Prezidentin yuxarı icra orqanı olan Nazirlər Kabinetində bu gün hamı kimi o da tapşırıqların icrası istiqamətində var qüvvəsi ilə çalışır.

# Vaqif Axundov təltif edildi

**Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.**



Musavat.com-un xəbərinə görə, sərəncamda qeyd olunur ki, Xüsusi Dövlət Mühafizə Xidmətinin yaranmasının 25 illiyi münasibətilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə xidmətin aşağıdakı hərbi qulluqçuları təltif edilsin:

1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Axundov Vaqif Əlibala oğlu - general-polkovnik;

2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Nağıyev Sabir Nağı oğlu - general-mayor;

Usubov Cəbrayıl Fridun oğlu - general-mayor;

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Əbdürəhmanov Rauf Zakir oğlu - general-mayor;

Orucov Xanbala Tubail oğlu - general-mayor.

# Bakıda tikintilərlə bağlı şok yoxlamalar başlayıb

## BŞİH-in indiyədək tikintiyə verdiyi bütün icazə sənədləri təftiş edilir; bəzi bina tikintiləri artıq dayandırılıb, hasarlar sökülüb

**Bakı şəhərində tikinti sahəsində proseslərin tənzimlənməsi istiqamətində böyük işlər başladılıb. Etibarlı mənbələrdən əldə etdiyimiz məlumata görə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə paytaxtın tikinti sektorunda problemlərin aradan qaldırılması, qanunsuz tikintilərin qarşısının alınması üçün ən yüksək səviyyədə səlahiyyətlər verilib. Komitə isə bu səlahiyyətlərindən istifadə edərək son illərdə Bakı şəhər İcra Hakimiyyəti tərəfindən tikintiyə verilən bütün icazə sənədlərinin yoxlanmasına başlayıb.**

Paytaxt ərazisində tikinti məqsədilə hasarlanmış bütün ərazilərdə hər hansı işlərə başlanması qadağan olunub. Bir çox yerlərdə hasarlar sökülüb, hətta tikintiyə başlanmış olan ərazilərdə işlər dayandırılıb. Bildirilir ki, bütün icazə sənədləri təftiş olunur, tikinti və şəhərsalma qaydalarına uyğunluq baxımından yenidən qiymətləndirilir. Ciddi pozuntuların aşkarlandığı bəlli olan kimi işlər dayandırılır.

Maraqlıdır ki, yoxlama prosesini Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirsə də, tikinti şirkətləri, bir çox hallarda isə onların arxasında dayanan şəxslərlə müzakirələri Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini, başçı səlahiyyətlərini icra edən Eldar Əzizov aparır. Onun bütün rayonları gəzərək tikinti şirkətlərinin rəhbərləri ilə tək-tək görüşüb, onları yeni situasiya barədə məlumatlandırdığı deyilir.

Redaksiyamıza daxil olan məlumata görə, bir neçə rayonda hakimiyyətin yüksək pillələrində təmsil olunan şəxslərə məxsus ərazilərin hasarları sökülüb, tikinti işlərinin aparılması qadağan olunub. Görünən budur ki, dövlət rəhbərliyi səviyyəsində nəzarətə götürüldüyünə görə bu məsələdə heç kimə güzəşt edilmir.

Onu da qeyd edək ki, Bakı ərazisində tikintilərin qanunsuz, heç bir norma və şəhərsalma qaydalarına əməl olunmadan həyata keçirilməsi ölkə prezidenti tərəfindən çox kəskin tənqid olunub. Nazirlər Kabinetinin 2018-ci ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasındakı çıxışında prezident bildirib ki, narahatlıq doğuran sahələrdən biri də inşaat sektorudur: **"Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına. Bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır".**



İlham Əliyev qeyd edib ki, qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaq: **"Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha demək istəyirəm ki, ilk növbədə, Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir".**

Prezidentin bu çıxışından bir neçə gün sonra BŞİH-in Memarlıq və Şəhərsalma Baş İdarəsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyinə verildi. Bununla bağlı prezident "Şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Fərmana əsasən, Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsini (tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin Nazirlər Kabineti və Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən verildiyi hallar istisna olmaqla) Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir.

Prezidentin bundan əvvəl imzaladığı sərəncamla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə Bakının Baş planının hazırlanmasına xarici şirkət cəlb etmək üçün 4 milyon manat ayrılmışdı. Komitə isə bu günlərdə məlumat yayıb ki, Bakı şəhərinin baş planının hazırlanması işinin təşkili prosesinə start verib.

Həmin məlumata görə, bu prosesin beynəlxalq standartlara uyğun təşkil edilməsi və Bakı şəhərinin baş planının ən uğurlu qlobal təcrübəyə əsaslanaraq tərtib olunması məqsədilə Komitə "Böyük Üçlük" adlanan dünyanın ən nüfuzlu üç strateji məsləhətçi şirkətlərindən birini - "The Boston Consulting Group" ("Boston Konsaltinq Qrup") şirkətini cəlb edir.

"The Boston Consulting Group" şirkəti ən iri konsaltinq şirkətlərindən biri olmaqla yanaşı, həm də şəhərlərin zonalaşdırılması və inkişafının planlaşdırılması, komfortlu şəhər mühitinin yaradılması, məşğulluğun transformasiyası, şəhər infrastrukturunun, turizm və nəqliyyatın, sosial sahələrin və sahəvi klasterlərin inkişaf strategiyalarının hazırlanması üzrə geniş beynəlxalq təcrübəyə malikdir və son 5 il ərzində dünyada 550-dən artıq belə layihəni uğurla həyata keçirib. Bu nüfuzlu məsləhətçi şirkəti tərəfindən son dövrdə Moskva, Kiyev, Pekin, Stokholm, Boston, Nyu-York və s. iri şəhərlər üçün belə layihələr reallaşdırılıb.

Məlumatda o da qeyd olunur ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi "The Boston Consulting Group" şirkəti ilə birgə Bakı şəhərinin baş planının hazırlanması işininin iki mərhələdə təşkil edilməsini planlaşdırır.

Birinci mərhələdə paytaxtla bağlı bugünədək hazırlanmış bütün səhərsalma və ərazi planlaşdırılması sənədlərinin, o cümlədən "Böyük Bakının Regional İnkişaf Planı" və "Bakı şəhərinin Ərazidən İstifadə və Zonalaşdırma Planı" layihələrinin təhlil edilməsi nəzərdə tutulur: **"Bu mərhələdə mövcud layihələrin aktuallığı yoxlanılacaq, şəhər infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı ehtiyaclar qiymətləndiriləcək, habelə bu sahədə ən uğurlu dünya təcrübəsi və ölkənin inkişaf prioritetləri nəzərə alınaraq Bakının inkişaf konsepsiyası işlənəcək. Bu proses çərçivəsində dünyanın müxtəlif şəhərlərinin baş planları öyrənilərək, müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübə təhlil olunacaq, onun Azərbaycanda tətbiqi imkanları nəzərdən keçiriləcək.**

**Eyni zamanda birinci mərhələdə Azərbaycan Respublikasının aidiyyəti qanunvericiliyinin, o cümlədən müvafiq şəhərsalma norma və qaydalarının nəzərdən keçirilməsi, təkmilləşdirilməsi zərurətinin dəyərləndirilməsi planlaşdırılır.**

**Bununla yanaşı, gələcəkdə baş planın reallaşdırılması prosesində iştirak edəcək aidiyyəti dövlət qurumlarının Bakı şəhərinin inkişafı ilə bağlı cavabdeh olduqları sahələr üzrə planları öyrəniləcək, dəqiqləşdirilmə və uyğunlaşdırılma işləri aparılacaq".**

İkinci mərhələdə komitə "The Boston Consulting Group" şirkəti ilə birgə birinci mərhələdə müəyyənləşdirilmiş tələblər əsasında şəhərsalma, memarlıq, mühəndislik şirkətlərini və aidiyyəti ekspertləri əməkdaşlığa cəlb etməklə paytaxtın baş planının işlənməsi prosesini davam etdirərək yekunlaşdırılmasını planlaşdırır. Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırıldıqdan və ictimai müzakirələr aparıldıqdan sonra Bakı şəhərinin baş planının təsdiq üçün Nazirlər Kabinetinə təqdim olunması nəzərdə tutulur. Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq baş plan təsdiq olunduqdan sonra 20 il ərzində qüvvədə olacaq.

Beləliklə, aydın olur ki, komitənin başlatdığı böyük və bir çox hakimiyyət mənsublarını belə nəzərə almadan reallaşdırılan işlər Bakının Baş planının hazırlanmasının tərkib hissəsi sayıla bilər.

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

# Xəzərin statusu çözüldü, çimərik problemi isə qalır




## Cərimə cəzaları nəticə vermir, bəlkə dənizi hasarlayanlara qarşı həbs maddəsi işə salınsın?..

**1 həftə əvvəl Qazaxıstanın Aktau şəhərində Xəzərin hüquqi statusu haqqında tarixi sənəd imzalandı. Sənədə əsasən, su hövzəsi adlandırılan Xəzər Azərbaycan, Türkmənistan, Qazaxıstan, İran və Rusiya arasında bölündü. SSRİ-nin dağılmasından sonra Xəzərin bölünməsi bütün 5 sahilyanı ölkənin münasibətlərində problemə çevrilmişdi və artıq problem xeyli dərəcədə geridə qalıb.**

Xəzərin Abşeron sahillərində təxminən eyni yaşlı problem isə qalmaqdadır. Havaların qızması dənizin Abşeron sahillərinin xalq üçün əlçatmazlıq problemini ən kəskin şəkildə ortaya qoyur. Boş qalmalı olan sahil zolağı bitib-tükənməyən uzun hasarlar və iri, dəbdəbəli darvazalarla faktiki olaraq zəbt edilib. Xüsusilə ənənəvi Bakı şəhərinin çimərlik zonası tamamilə tutulub.

Problemin aradan qaldırılması üçün qanunlara edilən saysız-hesabsız dəyişikliklər də vəziyyətə təsir eləmir. 2018-ci il iyulun ortasında məsələ bir daha qabarıq şəkildə gündəmə gəldi. Əmlak Məsələləri Dövlət Komitəsinin monitorinqləri zamanı bir daha təsdiq olundu ki, Xəzərin 20-50 metrlik mühafizə zolağına düşən torpaq sahələri zəbt olunub. Sahilyanı ərazilərin zəbti ilə bağlı çoxsaylı cinayət əməlləri aşkar edildi.

Komitədən verilən məlumatlardan belə aydın oldu ki, Torpaq Məcəlləsinin 46-cı maddəsinin tələblərinin pozulması paytaxtın Sabunçu, Xəzər, Suraxanı, Xətai və Qaradağ rayonlarının, eləcə də Sumqayıt şəhərinin ərazisində böyük qanunsuzluqlara yol verilib. Komitə Xəzərin sahilboyu 20-50 metrlik mühafizə zolağında mövcud olan torpaq istifadəçilərinin 190-da monitorinq keçirib. Nəticədə qanunvericiliyin tələblərinin pozulması ilə bağlı 50 hal üzrə inzibati xəta törədən şəxslər barədə protokol yazılıb, cərimələr tətbiq edilib. Qurum əməkdaşları torpaq sahələrinin əsassız zəbt olunması faktlarını da aşkar ediblər. Müvafiq icra hakimiyyəti orqanlarına, polis idarələrinə, Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə torpaq qanunvericiliyinin ciddi şəkildə pozulması faktları ilə bağlı müraciətlər yollayıblar. Cərimə olunanlar var.

Lakin görülən tədbirlərə rəğmən, bütün sahil boyu kilometrlik hasarlar Xəzəri vətəndaşların üzünə qapayıb. Vətəndaşların Xəzər sahilində istirahəti məhduddur, bəzi yerlərdə tamamilə mümkünsüz haldadır. Sahilyanı hasarlar Abşeronun bir çox kəndində yerli camaatın gözdağıdır. Yazmışdıq, bir daha yada salaq ki, belə hasarlar Hacı İbrahim Nehrəmlinin utopik layihəsindən başlayıb, üzü Sumqayıta qədər uzanır. Hasarlanmış Xəzərə sadə vətəndaşın çatması problemdir.

Köhnə problemlərin həllində yeni təyin olunan nazirlərə də ümidlər çoxdur. Lakin hələlik bu istiqamətdə əməli tədbirlər gözə çarpmır. Azərbaycan prezidentinin Torpaq Məcəlləsinə dəyişikliyi nəzərdə tutan 15 yanvar 2016-cı il tarixli fərmanının tələblərinə əsasən, Xəzər dənizinin 20-50 metrlik sahilboyu zolağının qrafik təsviri hazırlanıb.

Sahilboyu əraziləri zəbt edənlər fiziki, vəzifəli və hüquqi şəxslər ƏMDK tərəfindən müvafiq olaraq 4 min manat, 8 min manat və 40 min manat cərimələnir. Həmçinin Cinayət Məcəlləsində Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqları zəbt etmiş şəxslərə münasibətdə 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulub. Hələ ki hasarlar ortalıqdadır və hasarlayanlardan kimsə 7 və ya 10 il müddətinə cəza almayıb. Odur ki, Xəzərin Abşeron sahillərindəki hasarlanma probleminin çözülməsi 5 dövlətin bir araya gəlib Xəzərin özünü aralarında bölüşdürməsindən daha böyük problemə çevrilib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Putinin Qərbə qarşı "toy" gedişi

## Elxan Şahinoğlu: "Avstriya daha çox Kremllə əməkdaşlığa meyllidir"
## Elşən Mustafayev: "Bu hadisələr Avstriyanın AB-də olan mövqeyinə ciddi təsir etməyəcək"

**Rusiya prezidenti Vladimir Putinin Avstriyanın xarici işlər naziri Karin Knayslın toyunda iştirakı müzakirələrə səbəb olub. Putinin ölkəsinə sanksiyalar tətbiq edən Avropa Birliyinin (AB) üzvü olan Avstriya ilə isti münasibəti suallar doğurub. Ekspertlər bu yaxınlığın Avstriya-AB münasibətlərində gərginlik yarada biləcəyini vurğulayırlar.**

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Qərbi ikiüzlü olmaqda ittiham etdi:** "Bu fakt bir daha sübut edir ki, Qərb ölkələri ikiüzlü siyasət yürüdürlər. 2014-cü ildə Avropa İttifaqının qərarı var idi ki, Ukrayna torpaqlarına təcavüz etdiyi üçün Rusiyaya qarşı sanksiyalar tətbiq olunur. Amma birlik ölkələrinin bəziləri, hətta qabaqcıl sırada olan dövlətlərindən belə Rusiya ilə bəzi istiqamətlərdə əməkdaşlıq edənlər var. Biz də görürük ki, Avstriya daha çox Kremllə əməkdaşlığa meyllidir. Yaxınlarda ABŞ prezidenti NATO baş katibi ilə görüşdə çox maraqlı bir sual vermişdi. Tramp doğru bir həqiqəti söyləmişdi ki, Avropa bizdən Rusiyadan onları qorumağı istəyir, amma Avropanın bəzi dövlətləri, həmçinin Almaniya çətirimiz altında Rusiyadan daha çox qaz almağa başlayıb. Bu doğrudan da çox ziddiyyətlidir. Rusiya burada maraqlıdır ki, o çətiri dağıtsın, Avropa Krımın işğalını unutmağa başlasın. Bu cür gedişlə ola bilsin ki, bir müddətdən sonra Krımın işğalı Avropa üçün arxa plana keçsin, o biri dövlətlər də Rusiya ilə əməkdaşlığı genişləndirməyə başlasın".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev Putinin toyda iştirakının planlı şəkildə təşkil olunduğunu düşünür:** "ABŞ-Rusiya münasibətlərinin gərgin bir vaxtında Putinin Avstriyanın xarici işlər nazirinin toyuna dəvət olunmasını və orada iştirakını düşünülmüş, planlı şəkildə həyata keçirilmiş və konkret məqsədə xidmət edən aksiya kimi qiymətləndirirəm. Avstriya prezidentinin, baş nazirinin bir neçə ay öncə Vyanada Putinlə isti görüşləri, iqtisadi layihələri müzakirə etməsi o zaman çoxlarını təəcübləndirmişdi. ABŞ-ın bu məsələyə biganə qalmayacağı da söylənilirdi. Amma bundan sonra bir az da qabağa gedilərək Putinin qeyri-rəsmi tədbirə hörmətli qonaq kimi dəvəti hesab edirəm ki, məsələni Avstriya çərçivəsindən çıxarır. Məlumdur ki, AB-də əsas söz sahibi və AB-nin daxili və beynəlxalq siyasətinin formalaşdırılmasında mühüm rol oynayan Almaniyadır. O səbəbdəndir ki, ABŞ Rusiya və Yaxın Şərq problemi ilə bağlı danışıqları və məsləhətləşmələri məhz Almaniya ilə aparır. Son vaxtlar Almaniyanın Trampın siyasətinə zidd olaraq Rusiya ilə iqtisadi layihələr üzərində işlədiyinin şahidi olmuşuq. ABŞ-ın istəyinə zidd olaraq "Şimal axını-2" layihəsi üzərində intensiv işlər görülür. Bu səbəbdən idi ki, Tramp NATO sammitində kəskin şəkildə Almaniyanı tənqid etmişdi. Amma görünən odur ki, öz enerji təhlükəsizliyini təmin etmək üçün Merkel geri çəkilmək istəmir. Avstriya Almaniyaya ən yaxın dövlətdir. Hesab edirəm ki, Merkel özü birbaşa etməsə də, Avstriya vasitəsilə Rusiya ilə münasibətlərin normallaşmasında iqtisadi layihələrin davam etdirilməsində öz işini görür. Putinin toydan dərhal sonra oradan birbaşa Merkellə görüşə yollanması da çox şeyləri deyir. Müşahidələrim onu deməyə əsas verir ki, bu hadisələr Avstriyanın AB-də olan mövqeyinə elə də təsir etməyəcək. Çünki digər AB ölkələri, məsələn, İtaliya, İspaniya da zaman-zaman belə görüşlərdə iştirak ediblər. Bütün bunlara rəğmən AB ABŞ-la birgə Rusiyaya qarşı sanksiyaları davam etdirir və hələ davam etdirəcək. Amma maraqlı tərəf odur ki, artıq xeyli vaxtdır Avropa liderləri birbaşa təmaslarda Rusiyaya qarşı sanksiyaların əsas səbəbi olan Krım məsələsini dilə gətirmirlər. Ancaq Donbasda sülhün yaradılması və problemin həllini söyləyirlər. Belə yanaşma Rusiyanı qane edir, amma əsas narahat olduğu ölkə ABŞ-dır. Tətbiq olunan sanksiyaların təsirli hissələri məhz ABŞ-ın payına düşür. Sözsüz ki, Putinin son səfərlərinə ABŞ-ın reaksiyası olacaq. Tramp bunu hansı şəkildə edəcək, yaxında görəcəyik".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Azərbaycan prezidentinin Rusiyaya səfəri gözlənilir

## Rusiyanın yeni səfiri Mixail Boçarnikov mətbuat konfransı keçirib

**Azərbaycan prezidenti İlham Əliyevin Rusiyaya dövlət səfəri olacaq. Virtualaz.org xəbər verir ki, bunu Rusiyanın Bakıda səlahiyyətlərinin icrasına yeni başlayan səfiri Mixail Boçarnikov keçirdiyi mətbuat konfransında deyib.**





Diplomat bildirib ki, səfərin tarixi hazırda dəqiqləşdirilir. Bundan əvvəl Azərbaycan prezidentinin Rusiyaya sentyabrın 1-də səfər edəcəyi haqda məlumatlar açıqlanmışdı.

**Mixail Boçarnikov mətbuat konfransında daha sonra deyib:** "Yaxın zamanda Azərbaycan və Rusiya arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq elementlərinin daxil olacağı sənədlər paketinin imzalanması gözlənilir". (modern.az).

"Bu sənəd əsas yanaşmanı qeydə alacaq. İlk növbədə, əmtəə dövriyyəsinin artırılmasını qarşıya məqsəd qoymuşuq. Bu rəqəm 2017-ci ildə 2,6 milyard dollar təşkil edib. Onun daha da artacağına ümid edirik", - o bildirib.

**Səfirin sözlərinə görə, ölkələr sənaye, nəqliyyat və bir sıra digər sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindədirlər:** "Tezliklə Rusiyanın iştirakı ilə birgə müəssisələrin yaradılmasını görəcəksiniz və bu, daha da yaxınlaşmaq üçün fon yaradacaq. Sədrləri dəyişən İş Şurasının son zamanlarda fəallığı artıb. Bu mövqelərə energetika sahəsində münasibətlərimizin təşviqində maraqlı olan insanlar gəlib. Bizim tərəfdən şura 70-dən çox şirkətlə təmsil olunur. Dövlət inkişaf istiqamətini planlaşdıran zaman biznes maraqları nəzərə alınmalıdır. İlin sonuna qədər iqtisadi əməkdaşlığımıza stimul veriləcək".

**Səfir Boçarnikov bildirib ki, Rusiya heç kimi seçim qarşısında qoymağa çalışmır.** "Hesab edirəm ki, Rusiya və Azərbaycan suveren, dayanıqlı və sabit dövlətlərdir və onlar beynəlxalq arenada özləri üçün dostlar dairəsini müəyyən etmək iqtidarındadırlar"-diplomat deyib.

**ABŞ ilə Rusiya arasındakı qarşıdurma fonunda Bakının Moskva və Vaşinqtonla münasibətləri haqqında sualı cavablandırarkən diplomat bildirib ki, Rusiya öz tərəfindən Azərbaycanla qarşılıqlı fəaliyyət və əməkdaşlığın daha sıx olması üçün mümkün olan hər şeyi edəcək:** "Birqütblü dünyanın vaxtı keçib, o, daha işləmir. Dünyada müxtəlif təsir mərkəzləri, münasibətlərini milli maraqları əsasında quran çox sayda güclü ölkə var. Azərbaycanın siyasətini qiymətləndirməyim düzgün deyil, çünki bu, suveren dövlətdir. Rusiya haqqında deyə bilərəm ki, kiminsə Rusiyanı idarə etmək, onu özünə tabe etdirməklə bağlı cəhdləri heç vaxt olmayıb, olmayacaq da".

# Müxalifətin payız planları: bələdiyyə seçkiləri, təşkilatlanma...

## Partiya funksionerləri görüləcək işlərdən danışdılar

**Yay aylarında insanların istirahətə yollanması, məzuniyyətə çıxması bütün sahələrlə yanaşı, siyasi müstəvidə də passivliyin yaranmasına səbəb olur. Eləcə də müxalifət cəbhəsində də bu, özünü göstərir. Artıq demək olar ki, yay fəsli başa çatmaq üzrədir.**

Bəs ölkənin müxalifət nümayəndələri yayda nə iş görüblər və onların payız planları nədən ibarətdir?

Bu sualla bir neçə müxalifət partiyalarının funksionerlərinə müraciət edib, fikirlərini aldıq.

**ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirdi ki, əslində siyasətdə fəsil anlayışı yoxdur:** "İctimai-siyasi hadisələrin mahiyyətindən, tempindən asılı olaraq asılı olaraq addımlar atılır. Siyasətdə planlaşdırma deyilən bir şey yoxdur. Dövlət siyasətində planlaşma var. Müxalifətin isə icraat işi olmadığı üçün planlaşdırmadan danışmaq olmaz. Biz sadəcə olaraq yaranmış problemlərlə bağlı həll yollarını göstərib, gündəlik fəaliyyətimizlə məşğul olacağıq. Yəni hər dəfə gördüyümüz işi edəcəyik".

AG Partiyanın lideri Tural Abbaslı bildirdi ki, partiya olaraq bütün situasiyalara hazır olmağa çalışırlar:

"Yay aylarında bütün sahələrdə passivlik müşahidə olunur. Dünyada da bu, belədir. Bütün bu kimi səbəblərdən müxalifət partiyalarının da gündəmi yüngülləşir, siyasi aktivlik olmur. Lakin biz çalışırdıq ki, yay aylarını da boş ötürməyək. Çünki siyasi səhnəyə yeni daxil olan partiyayıq və yerimizi tutub möhkəmlənməyimiz üçün çox çalışırıq. Daha çox partiyanın təşkilati məsələləri ilə tanış olurduq. Yeni insanlarla söhbət edib, gənclər arasında təbliğat aparıb, partiyanın görə biləcəyi işləri müzakirə edirdik. Güman edirəm ki, nəticələr bizə görə uğurludur. Payızda artıq siyasi arenada aktivlik artacaq. Çalışacağıq ki, siyasi proseslərin önündə olaq və sözümüz eşidilsin. Keçirilməsi mümkün ola biləcək hər hansı bir seçkilər olarsa, çalışacağıq ki, iştirak edək".

**KXCP sədrinin müavini Xəzər Teyyublu söylədi ki, onlar da yay aylarını da boş keçirməyiblər:** "Hazırda siyasi fəaliyyətimizi davam etdirik. Yerlərdə şöbələrimizin konfransları keçirilir, partiyamızın növbəti qurultayına hazırlaşırıq. 22 avqust saat 11-də Əbülfəz Elçibəyin vəfatı günü ilə bağlı Fəxri Xiyabanda yığışacağıq. Sentyabrın 8-də partiyanın Ali Məclisinin növbəti sessiyası olacaq. Bakı şəhərinin azad edilməsinin 100 illiyi ilə bağlı sentyabr ayının 15-də tədbir keçirəcəyik. Gündəlik təşkilati işlərimizi də davam edirik. Siyasi vəziyyətə uyğun olaraq da partiya rəhbərliyinin müvafiq qərarına uyğun addım atacağıq. Hazırda rayon şöbələrimizdə hesabat-seçki iclasları keçirilir. Bütün bu iclaslar başa çatdıqdan sonra qurultayın tarixi, yeri müəyyənləşəcək. Hələ ki, bu, bəlli deyil".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli isə söyləyib ki, yay ayında partiyanın rayon təşkilatlarının məclisləri, toplantıları keçirilib:** "Partiya rəhbərliyi də həmin toplantılarda iştirak edib. Adətən biz yay ayında rayon təşkilatlarının həm hesabat-seçki yığıncaqlarını keçiririk, həm də hesabat-seçki yığıncaqları keçirilən təşkilatların məclislərinin və digər seçkili qurumlarının toplantıları olur. Partiya rəhbərliyi yay aylarında partiyanın bütün rayon və şəhər təşkilatlarının fəalları ilə görüşlər keçirir. Bu yay demək olar ki, həmin işlər tam olaraq həyata keçirilib. Payız aylarında isə partiyanın ictimai-siyasi həyatında daha da aktivlik olacaq. Bizdə həm Mərkəzi İcra Aparatının rayon təşkilatları tam aktiv fəaliyyətə keçəcəklər. Gələn il bələdiyyə seçkiləri də keçiriləcək. Biz indidən bu seçkilərlə bağlı müvafiq tədbirləri görüb, seçkilərə hazırlaşırıq".

**Yeni yaranan REAL Partiyasının idarə heyətinin üzvü Natiq Cəfərli söyləyib ki, onların da əsas hədəfində bələdiyyə seçkiləri dayanır:** "Hazırkı fəaliyyətimiz təşkilatların möhkəmlənməsi ilə bağlıdır. Bir neçə yerdə sədr yerləri boşdur ki, orada seçkilər keçiriləcək. Sentyabr ayında isə qrafik üzrə regionlara müxtəlif səfərlərimiz nəzərdə tutulub. Əsas hədəfimiz bələdiyyə seçkiləri ilə bağlıdır. Çünki bələdiyyələr, yerli özünüidarəetmə çox vacib bir institutdur. Azərbaycanda dəyişikliklərin olması üçün bu institutların nüfuzunun artırılması da vacibdir. Hətta yerli icra hakimiyyətlərinin seçilmiş bələdiyyə sədrləri ilə əvəz olunması da çox vacibdir. Biz də bunu gündəmə gətirəcəyik. Payız aylarında bu yöndə Bakı və regionlarda ilkin nəbz yoxlaması keçiriləcək ki, hansı bələdiyyələrdə seçkilərə hazırlaşmaq olacaq. Namizədlərimizi də müəyyənləşdirəcəyik. Yaxın hədəfimiz bunlardır".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018



# Ermənilər almanları Azərbaycandan necə sürgün etdirdi -sensasion tarix

## Tarixçi-araşdırmaçı Xaqani İsmayıl: "XX əsrin əvvəlindən erməni millətçiləri Helenendorf (Göygöl) alman koloniyasını terror basqısı altında saxlayırdı"

**Erməni millətçilərinin son əsrdə Azərbaycan türklərinə qarşı törətdikləri soyqırım faktları hər birimizə məlumdur, hətta dünyanın bir sıra ölkələri bu tarixi faktları tədricən etiraf etməkdədir. Təəssüflər olsun ki, xristian təəssübkeşliyi və beynəlxalq aləmdəki ikili yanaşma bir çox güclərin, paytaxtların ədalətli mövqedən çıxış etməsinə imkan vermir, əksinə, saxta "erməni soyqırımı"nı tanıyanların sıraları ilbəil artır. Ancaq son əsrdə ermənilər elə dəhşətli cinayətlərə əl atıblar ki... Özü də bu cinayətlər təkcə Azərbaycan və Anadolu türklərinə qarşı yönəlməyib.**

*Yazıçı, tarixçi-araşdırmaçı Xaqani İsmayıl vaxtilə çox qiymətli araşdırmalarını toplayaraq nəşr etdirib və həmin materiallar dünyanın üç dilində nəşr edilib. Söhbət böyük bir coğrafiyada törədilmiş soyqırımlar silsiləsindən gedir. Belə ki, ötən əsrin ilk yarısında erməni millətçiləri indiki Göygöl (keçmiş Helenendorf-red.) rayonu ərazisində yaşamış almanlara qarşı siyasi terrorla yanaşı, soyqırım siyasəti həyata keçiriblər. Dəyərli tarixçimizlə bu sensasion faktlarla bağlı danışdıq.*

***- Xaqani müəllim, Sizi ermənilərin bölgəmizdə həyata keçirdikləri dəhşətli soyqırım siyasəti barədə kifayət qədər bilgili tarixçi kimi tanıyırıq. "Yeni Müsavat"ın oxucularına bu mövzuda nə deyə bilərsiniz?***

- Nəzərdə tutduğunuz tarixi araşdırmalarım coğrafi baxımdan Kiprdən başlayaraq, Anadolu, Güney Azərbaycan (İran), Qafqazlar və Orta Asiyanı əhatə edir. Həmin araşdırmalarımın yayınlandığı kitablardan biri "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı", digəri "Erməni məsələsi" və türk-müsəlman soyqırımı" (ensiklopedik tarixi araşdırma - red.) adlanır. Həmin kitablarda bu gün və gələcəkdə də aktuallığı qoruyacağı öngörülən Kiçik Asiyadan Türküstana qədər nəhəng bir ərazidə təkcə ermənilərin özlərinə düşmən seçdikləri türklərə (müsəlmanlara) qarşı deyil, həm də arxa seçdikləri və təəssübkeşləri olduqlarını bildirdikləri xristianlara və yəhudilərə qarşı törədilmiş hərbi cinayətlərdən, indiki beynəlxalq hüququn dili ilə dedikdə soyqırımlardan gedir. Tədqiqatlarımın bu cür yön alacağını AMEA-nın Tarix İnstitutu da təxmin etməmişdi və ilk dəfə bu kitabları Yaqub Mahmudova görüşümdə ona təqdim edəndə olduqca heyrətləndi. Sözün gerçəyi, hələ 2015-ci ildə Türkiyənin Xocalı hadisələri ilə bağlı Şərqi Anadoluda keçirdiyi konfransdakı çıxışım zamanı bu yenilikləri açıqlamağımla sanki tozanaq qopdu - bu, Türkiyədə möhtəşəm bir olaya çevrildi, Türkiyənin Şərq vilayətlərindən dəvət almış tarixçi alimlər, ictimai xadimlər, dövlət rəsmiləri və TRT, "Anadolu Agentliyi" kimi dövlət kanallarının yayım təmsilçiləri heyrət içindəydilər. Konfransda yardımçısı iştirak edən Azərbaycanın Qars Baş konsulu Ayxan Süleymanlının imzası ilə xarici işlər naziri Elmar Məmmədyarova həmin gün, 25 fevral 2015-ci il tarixində raport göndərilərək, mənim şəxsimdə bu çıxışla Azərbaycanın Türkiyədə böyük bir uğura imza atdığı bildirildi... Bu məsələlərə münasibəti yoxlamadan keçirmək üçün Gürcüstanda da hələlik iki rəsmi görüş keçirdim.

Yəhudi əsilli gürcü olan tarixçi professor, Gürcüstan Elmlər Akademiyasının Tarix İnstitutunun Qafqaz ölkələrini araşdıran şöbənin müdiri, Gürcüstandakı "Yəhudi Muzeyinin" direktoru, bir neçə ölkə tərəfindən Nobel mükafatına namizəd irəli sürülmüş Qivi Qambaşizdenin "Qafqaz Fondunda" özünün rəhbərliyi, bəzi gürcü alimlərinin və yerli Azərbaycan ziyalılarının iştirakı ilə qapalı görüşümüz oldu. Növbəti görüşümüz Gürcüstan Elmlər Akademiyasının Kriminalistika İnstitutunda təşkil olunmuşdu. Hər iki görüşdə mənim məruzəmə və təqdim etdiyim tarix faktlara diqqət edilərək belə bir qənaətə gəlindi ki, bizim kitabların əsasında belə müzakirələr Tiflisdə ermənilərin iştirakı ilə açılsa, onlar cavab verə bilməyəcəkləri üçün dava salıb konfransı dağıtmağa çalışacaqlar. Hətta ağsaqqal Qivi Qambaşizde qayğılanaraq dedi ki, bilmirsinizmi, cavab verə bilmədikləri üçün son nəticədə onlar sizə qarşı terrora əl atacaqlar. Dedim ki, əlbəttə, mən bu ehtimalı gözə alıram - ancaq millət olaraq, başqa çıxış yolumuz yoxdur. Bu həqiqətləri dünyaya, özəlliklə də ermənilərin dayaq seçdikləri ölkələrə çatdırmalıyıq. Sonra AMEA Tarix İnstitutunun dövlət orqanlarımızın dəstəyi ilə keçirdiyi soyqırımla bağlı beynəlxalq konfransda "Ermənilərin xristianlara qarşı soyqırımı" mövzusu ilə bağlı məruzəm oldu. Orada iştirak edən gürcü, rus, özbək və s. alimlər də bu araşdırma istiqamətinin sensasiyalı olduğunu bildirdilər. Moskvadan təmsil olunan tarixçi professor İqor Turitsın isə həmçinin bildirdi ki, bu tarixi yeniliklər Rusiya dövləti ilə ermənilər arasında bir ciddi uçurum yaradır ki, bu səbəbdən də sizin kitabın Rusiyada nəşrini qadağan edəcəklər. Sonra "Ermənilərin xristianlara qarşı soyqırımı" kitabının ingiliscəsi İsveç parlamentinə göndərildi. Yanlışlıqla uydurma "erməni soyqırımı"nı tanıyan İsveç parlamenti kitabımla tanış olan bir neçə İsveç millət vəkilinin təqdimatı ilə keçən il mayın 9-da bu mövzu ilə bağlı mənim parlament binasında İsveç ictimaiyyəti üçün yerli dilə sinxron tərcümə ilə seminar verməyimə icazə verdi. Təbii ki, bu tədbirin təşkilatçısı İsveçdəki güneyli-quzeyli azərbaycanlı diasporu idi, oradakı səfirliyimiz də maraq göstərərək 3 nəfər heyətlə seminara qatılmışdı. Azərbaycanda təmsil olunan səfirliklərdən isə bu kitablara hələlik Pakistan, Latviya, Ukrayna, Qazaxıstan, İran səfirlikləri maraq göstərib. Bütün bu sadalananlara səbəb nədir? Təbii ki, heç kəsin gözləmədiyi halda ermənilərin 1919-cu ildə ingilislərin silahlı köməyi ilə Qars vilayətində hökumət yaratdıqdan sonra oradakı rus və yunan kəndlərini qılıncdan keçirməsi, 1918 və 1993-cü illərdə Gürcüstanda gürcülərə qarşı soyqırım törətməsi, 1916-cı ildə Türkiyədə,1918-1919-cu illərdə Qubada və Urmiyada, 1941-ci ildən etibarən isə faşist əməliyyatları kölgəsində yəhudilərə qarşı soyqırımı törətməsi kimi tarixi sənədlərin bizim kitabda sistemli şəkildə təqdim və şərh olunmasıdır. Dediyiniz kimi, bu heyrətamiz olaylar sırasında Qafqaz almanlarına qarşı erməni millətçiləri tərəfindən həyata keçirilən siyasi terror, faktiki, soyqırım siyasəti də araşdırdığımız önəmli səhifələrdəndir.





## "Terrorçu erməni millətçiliyi ilə alman faşizmi arasında çox fərq var"

***- Tarixi mənbələrdən aydın olur ki, hələ 1907-ci ildə Yelizavetpol (Gəncə-red.) şəhərində Daşnaksütyun Partiyasının üzvlərinə qarşı cinayət işi açılıb. Şəhər pristavının köməkçisinin imzaladığı sənəddə qeyd olunur ki, 1905-ci ildən 1907-ci ilin avqustunadək Daşnaksütyun Partiyasının yerli təşkilatının rəhbəri Koryun silahdaşları Arutyunov qardaşları ilə birlikdə Helenendorf (Göygöl-red.) almanlarını partiyanın xəzinəsinə xərac verməyə məcbur ediblər, o cümlədən şərab istehsalçıları olan Forer və Qurrdan hərəyə 30 min rubl pul tələb ediblər. Qurr bu məbləği ödəmədiyi üçün partiyanın yerli təşkilatının qərarı ilə qətlə yetirilir. Deməli, erməni millətçiləri onların mənfur siyasətinə dəstək verməyən şəxsin milli kimliyinə və dininə belə fərq qoymayıblar. Elə isə nədən bu kimi faktlar dünyada adekvat cavabını almayıb?***

- Alman sahibkarı Qurra - əslində bu soyad "Hurr" kimi yazılmalıdır - qarşı Daşnaksütyun Partiyasının xərac tələbi və onun öldürülməsi hadisəsi ermənilərin Qafqaz almanlarına qarşı nə ilk, nə də yeganə terror əməli deyil. Bu qanlı olaydan öncə, 4 iyul 1904-cü ildə Yelizavetpol Quberniyasının Qubernator müavini Andrey Filimonoviç Andreev (milliyyətcə alman), 26 sentyabr 1905-ci ildə (Tiflisdə) Cənubi Qafqaz alman koloniyaları baş pastoru - Markus Miller erməni daşnaklarının vəhşicəsinə terroru sayəsində həyatlarını itirmişdilər. Başqa alman kolonistlərdən 1904-cü ildə Qotlib Digel, 1905-ci ildə Henrih Mayer və o dönəmdə müxtəlif zamanlarda başqaları da ermənin terrorunun qurbanı olmuşdular. Başqa sözlə, XX əsrin əvvəlindən erməni millətçiləri Helenendorf alman koloniyasını terror basqısı altında saxlayırdı. Bu kimi azğın fəaliyyətlərin nədən hüquqi və siyasi qiymətini almaması məsələsinə gəldikdə isə öncə onu xatırladaq ki, o dönəmdə ermənilərin dövləti olmamağına baxmayaraq gizli şəkildə "Böyük Ermənistan" uğrunda mübarizə aparırdılar. Bu yolda onlara dəstək verməyən rus, gürcü əsilli çar məmurlarına qarşı da terrora əl atmaqdan çəkinmirdilər. Bakı qubernatoru gürcü Nakaşidzedinin və başqalarının daşnaklar tərəfindən öldürülməsi buna əyani sübutdur. Daşnakların bu tip terror cinayətləri o həddə çatmışdı ki, 1912-ci il yanvarın 17-də Sankt-Peterburqda Senat Məhkəməsi bu cinayətləri mühakimə edərək hökm verirdi. Sonucda ərköyün ermənilərin hökumətdəki himayədarları mərhələlərlə onların əksəriyyətini çar Rusiyasının bu ağır cəzalarından birtəhər ötüşdürdü... İndi arxivlər açılır və azərbaycanlılar, almanlar, ruslar, gürcülər və başqa maraqlı tərəflər bu məsələləri yenidən araşdırıb-dəyərləndirmək imkanı qazanıb.

***- Məlumatlara görə, bu kimi dəhşətli faktlarla tanış olan Almaniyanın Bonn Universitetinin professoru, Qafqaz almanları tarixinin tədqiqatçısı xanım Eva Mariya Aux öz təəssüratını "Biz daşnak terroru haqqında çox eşitmişdik. Amma bu gün ilk dəfə bu barədə faktları təsdiq edən konkret sənədlərlə tanış oluruq" sözləri ilə ifadə edib. Sizin almanlara qarşı erməni vəhşilikləri barədə araşdırmalarınıza Almaniyadan hansı reaksiyalar verilib?***

- Sözün açığı, mən "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" mövzusu ilə bağlı elmi konfransları öncə daha çox xaricdə - başlanğıc olaraq Avropada və rusdilli ölkələrdə keçirməyi uyğun gördürdüm. O baxımdan da İsveç səfərindən sonra Almaniyada xanım Eva Mariya Auxun da qatıla biləcəyi bir tədbir düzənləməyi təklif etmişdim. Təbii ki, alman ictimaiyyətinə araşdırmalarımızdakı yeni faktları da təqdim edəcəkdik. Ancaq nə XİN, nə Diasporla iş üzrə Dövlət Komitəsi, nə də xaricdəki diaspor təşkilatlarımız belə bir səfəri təşkil etmədilər. Məsələ yenə də gündəmdədir, xaricdəki diaspor təşkilatlarımızla məsləhətləşmələrimiz davam edir, baxaq bu məsələ nə zaman gerçəkləşəcək... Bu yaxınlarda Azərbaycandakı xarici səfirliklərə də müraciətimiz olacaq, təbii ki, öncəliklə həm də Almaniya səfirliyinə. Güman edirəm ki, yuxarıda haqqında bəhs etdiyim mövzu ilə bağlı zaman-zaman həm xristian ölkələrinin, həm də yəhudi ictimaiyyətinin reaksiyaları olacaq. Sadəcə, bu sistemli layihəyə hökumətimiz və xaricdəki diaspor təşkilatlarımız çox ciddi yanaşmalıdırlar.

***- Sizin də qeyd etdiyiniz kimi, ermənilər təkcə Azərbaycanda deyil, Gürcüstanda da almanlara qarşı terror törədiblər. Məsələn, 1918-ci ilin dekabrında da alman hərbi missiyasını qorxuya salaraq bölgədən çıxmağa vadar etmək, ingilislərin köməyi ilə Qafqazda ağalığı ələ almaq üçün ermənilər terrora əl atıblar. Onlar Tiflisdəki yalnız və yalnız alman zabitlərinin və rezidensiyalarının yerləşdiyi "Palas" hotelini gizlicə yandırıblar. Həmin dövrlə bağlı sizdə digər hansı tarixi faktlar var?***

*(davamı gələn sayımızda)*

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Naxışlar

Zamin HACI
zaminhaci@gmail.com

*"Gün olur ki ne gökyüzü para eder,*
*Ne deniz kenarı, ne bağlar bahçeler.*
*Gün olur ki ne kız, ne rakı, ne şiir,*
*Hiçbir şey insanı sarmaz, kandıramaz;*
*Her çeşmeden boş döner, elindeki tas.*
*Gün olur ki çıldırmak işten değildir".*

***(Cahid Sıtkı Tarancı)***

**Ötən yazımda hərənin bir yeri şəxsi mülkü elan edib turistlərdən pul istəməsinə toxunmuşdum. Dərhal Bakı bulvarından yeni xəbər aldıq: orada hansısa hissəni pullu elan ediblər, giriş üçün 1 manat alırlar. Bulvar idarəsi hətta camaatın bunu razılıqla qarşıladığını bildirmişdi. Deyir, bəziləri ora pulsuz girib əxlaqsızlıq edirdi. Maraqlı yanaşmadır. Guya indi 1 manat ödəyib, girməyəcəklər. Prinsipcə, bizdə hər yer bu cür pullu girişlədir. Avtovağzaldan tutmuş, universitetlərə qədər. Sadəcə, bu ödənilən pullar lazımi, qanuni yerinə çatmır, dövlət büdcəsinə, həmçinin yerli idarəetmə orqanlarının büdcəsinə bu yığımlar oturmur. Nəticədə hansısa yolkəsənin quldurluq edib camaatı soyması təssüratı yaranır ki, bu da dövlətçiliyimizə yaraşan hal deyildir. Bizdə axırıncı yolkəsənlik hadisəsi AXC-Müsavat hakimiyyəti dönəmində qeydə alınmışdır, Surətin qabağını Hacıqabulda kəsmək istəmişdilər, heç onu da yarıtmamışdılar, çünki bacarıqsız hökumət idi.**

O cümlədən Bakı Nəqliyyat Agentliyi Binəqədidə, Rəsulzadə qəsəbəsinin mərkəzində avtobus dayanacağının zəbt edilməsi haqda foto-açıqlama yaydı. Doğrudan da orada darısqal yolun içində biabırçı vəziyyət yaranıbdır, kimsə dayanacağı söküb yerində 3 mərtəbəli dükan qayırmaqla məşğuldur. Bunlar hamısı köhnə icra başçısı Xaləddin müəllimdən qalma ünsürlərdir. Xaləddin müəllim işdən çıxarılacağını gözlədiyi (dayday Fazil müəllim vergidən uçandan sonra) son bir neçə ayda Binəqədidə artıq yolları satmağa girişmişdi, çünki başqa yer qalmamışdı, səkiləri daha öncə satmışdı. Həmin satasatın üzündən hazırda Binəqədi rayonu ərazisindəki küçələr Türkiyədəki məşhur Menderes çayının hövzəsini xatırladır - o dərəcədə dolanbacdır. Həmişə getdiyin yolla gedirsən, bir də görürsən qarşına dükan çıxdı. Məcbur dönüb ayrı yolla gedirsən, orda görürsən villa qayırıblar. Villanı birtəhər burulursan, bu dəfə hansısa çayxana çıxır. Ancaq biz Binəqədi sakinləri buna görə o qədər dilxor olmuruq. Hər pisdə bir yaxşı, hər qaranlıqda bir işıq vardır. Qaranlığı söyməkdənsə, bir şam yandır! Şam əgər yanmırsa, dövlət büdcəsinə keçirilibdir. Həri. Temadan uzaqlaşmayaq. Bayaq adını çəkdiyim Menderes çayının qədim adı Meandr çayıdır, orada qədim yunan mədəniyyəti vaxtilə ad qoymuşdur. Meandr çayı əyrim-üyrümlüyü ilə qədim dünyada çox məşhur idi. Həmin çayın adından isə dünyaya meandr naxışı deyilən ornament yadigar qalmışdır. Davamlı olaraq təkrarlanan düzbucaqlı xətlərdən ibarət bu naxışın ən məşhur istifadəyerlərindən biri "Canni Versaçe" firmasının emblemidir (təsəvvür üçün yazdım, köşədə naxış vermək imkanımız hələlik yoxdur - icra hakimiyyəti gərək lisenziya versin). Uzun sözün qısası, biz hazırda ümid edirik ki, Xaləddin müəllimin yolları dükan üçün satması üzündən dünya mədəniyyətinə də hansısa bir "Binəqədi naxışı" qalacaqdır.

Yazının bu məqamında poçtalyon dədə-babası qaydasında, kağızda və konvertdə məktub gətirdi. Məktubu Neftçalanın Aşağı Qaramanlı kəndindən Əliniyaz Quliyev yazıb. Daimi oxucularımız 88 yaşlı pedaqoji elmlər namizədi Əliniyaz müəllimi xatırlamalıdırlar, çünki onun haqqında ötənlərdə yazmışam. Əliniyaz müəllimin indiki məktubu isə bizim 9 avqustda çıxan "Tarixi adətlərimizə körpü" yazımızla bağlıdır. Yazır ki, bizim kənddə də şlaqbaum qoyublar, tam qanunsuz halda. Kənddən çölə gedən yolda qoyulan şlaqbaumun yanına da itlər buraxıblar, camaat heç cür keçməsin deyə. Əliniyaz müəllim öz gücünə şlaqbaumun qıfılını sındırıb atıb, ancaq özünü tam sökməyə gücü çatmayıb. Deyir ərazidəki hökumət qurumlarına bu şlaqbaum haqda çoxlu şikayət eləsəm də xeyri olmayıbdır.

Maraqlı hadisədir. Görəsən, çöllüyə gedən yola şlaqbaum qoymaq kimin ağlına gəlmişdir, oradan marağı nədir? Bəlkə Neftçalanın həmin çöllüyündə "İnterstellar" filmindəki kimi, kosmosu araşdıran gizli stansiya vardır? Nə bilsən... Azərbaycanın hər qarışı əsrarəngizdir, möcüzələrlə doludur. İndi söz əlaqədar təşkilatlarındır. Bu dəfə onlara yazının ortasında ehtiyac duyduq, axıra qalmasınlar, işgüzar təşkilatlardır, bəlkə harasa tələsirlər.

Hərçənd nə orta, yazı artıq qurtardı. Əlaqədar təşkilatlara mane olmayaq.




# Putin Paşinyanla müharibəyə başlayır - Bakının "Rus NATO-su"na qoşulması...

## Rusiya KİV-i Azərbaycanın KTMT-yə mümkün üzvlüyü ətrafında başlayan müzakirələrdən yazdı; düşmən ölkədə əksinqilab təlaşı artır; **erməni nəşri:** "Erməni xalqı döyüşü qəbul edəcək, ölkənin Kremlin qəyyumluğuna qayıdışına imkan verməyəcək..."

**Rusiya ilə Ermənistanın yeni rəhbərliyi arasında hökm sürən qarşılıqlı etimadsızlıq ab-havası davam edir. Sabiq prezident Robert Köçəryanın qısa müddətli həbsdən sonra azadlığa çıxması vəziyyəti bir qədər də tündləşdirib. Eyni zamanda Moskvanın qərbyönlü Paşinyan iqtidarına qarşı hansısa ssenarinin işə salındığı haqda ehtimallarɪ gücləndirib. Erməni və Rusiya KİV-də getmiş təhlili yazılardan öncə bu qənaət hasil olur.**

*****

"Köçəryanın İrəvanın xarici siyasəti ilə bağlı narahatlığı - Moskvanın narahatlığıdır, əsla Köçəryanın yox". "Yeni Müsavat" xəbər verir ki, bu barədə armenianreport.com portalındakı dünənki baş məqalədə deyilir.

"Ermənistanda heç kimin gözləmədiyi inqilab baş verdikdən sonra ölkənin ən mənfur siyasi xadimlərindən biri, yeri müttəhimlər kürsüsü olan, çoxdan güllənmə maddəsini haqq eləmiş Robert Köçəryan hakimiyyətə qayıtmaq və "məxməri inqilab"ın bütün cücərtilərini və uğurlarını məhv eləmək niyyətindədir. Bu zaman o, öz məramını belə izah edib ki, guya ölkənin xarici siyasəti ilə bağlı narahatdır". "Hesab edin ki, mən artıq qayıtmışam" deyib Köçəryan" - məqalədə bildirilir.

"Yeni Müsavat" xatırladır ki, baş nazir Nikol Paşinyan az öncə çıxışlarının birində "Rusiya Ermənistandakı yeni vəziyyətə adaptasiya olunmalıdır" ifadəsini işlədib. Bu da ilk növbədə Moskvaya ünvanlı ultimativ bir mesajdır ki, Ermənistanda guya müstəqil hakimiyyətin varlığı və onun yeni daxili-xarici siyasəti ilə Kreml hesablaşmalıdır. Paşinyan iqtidarının əsas rəqibləri, xüsusən də təzəcə Moskvanın müdaxiləsi ilə azadlığa çıxan Köçəryan elə bu bəyanatdan yapışıb. Daşnaklara məxsus telekanala verdiyi müsahibəsində Köçəryan həmin sözlərə görə Paşinyanı siyasi naşılıqda ittiham edib.

**Bu kontekstdə məqalə müəllifi daha sonra yazır:** "Bizim xalqda yəqin ki, Köçəryan qədər nifrət doğuran ikinci siyasətçi yoxdur. Hətta Serj Sərkisyana ondan az nifrət edirlər. Və bunun səbəbləri var. Söhbət təkcə 1 mart 2008-ci il qırğınından gedir. Hamımız xatırlayırıq ki, Köçəryan mütləq hakimiyyətə 1999-cu ilin 27 oktyabrında parlamentin güllələnən edilməsindən sonra nail olub. Nə vaxt ki, onun qeyri-leqal əmiri ilə əsas siyasi rəqibləri - parlamentin o vaxtkı spikeri Karen Dəmirçyan və o vaxtkı baş nazir Vazgen Sərkisyan güllələndilər. Məhz Köçəryanın dövründə ölkədən kütləvi köç başladı. Onun idarəçilik illəri Ermənistanda durğunluq və tiraniya ilə, repressiya və korrupsiyanın güclənməsi ilə, vətəndaş azadlıqları və şəxsiyyət hüquqlarının məhvi ilə müşayiət olundu. Ən əsası, Köçəryan Ermənistanı Rusiyanın forpostuna çevirdi və bu illər ərzində öz hakimiyyətini məhz süngü ucunda qoruya bildi".

**Nəşr Köçəryanın məhz "Rusiyanın Ermənistandakı nüfuzuna ciddi zərbə vurulduğu vaxt" siyasətə qayıdışını təsadüfi saymır:** "Ermənistanın yeni hakimiyyəti daha Moskvanın "kiçik qardaşı" olmaq istəmir, Odur ki, yavaş-yavaş da olsa, inamlı şəkildə Qərblə, o sırada Avropa Birliyi ilə, NATO və ABŞ-la yaxınlaşma kursu götürüb. Bu isə Kremli narahat etməyə bilməz. Bu üzdən o, Ermənistanı öz orbitində saxlamaq üçün "Köçəryanın qayıdışı" adlı layihəni reanimasiya edib. Heç təsadüfi deyil ki, Köçəryan siyasətə İrəvanın xarici siyasətindən narazılıq şüarı ilə qayıdır. Əslində isə Köçəryanın ölkənin xarici siyasət kursu ilə bağlı narahatlığı Moskvanın narahatlığıdır, əsla Köçəryanın yox. Əgər Rusiya Ermənistanda əksinqilab həyata keçirsə, o zaman onun başında Köçəryanı oturdacaq. Bununla həm Ermənistanı öz orbitində saxlayacaq, həm də əlaltısını müttəhimlər kürsüsündən xilas edəcək. Ancaq Moskvanın əlaltısı öz kürsündə duruş gətirə biləcəkmi? Çətin. Bunu artıq "məxməri inqilab" göstərdi. Bizim geri çəkilməyə yerimiz yoxdur. Demək, erməni xalqı döyüşü qəbul edəcək və ölkənin Kremlin qəyyumluğuna qayıtmasına imkan verməyəcək".

*****

Ancaq Rusiya Ermənistanda hakimiyyət dəyişikliyi ilə bağlı ciddi iradə ortaya qoysa, doğrudanmı ermənilər buna müqavimət göstərmək gücündədirlər. Tarix göstərir ki, yox. Əlbəttə, Azərbaycan üçün Xocalı canisinin hakimiyyətə qayıdışı yaxşı heç nə vəd eləmir. Necə deyərlər, "ilanın ağına da lənət, qarasına da". Biz köçəryanların, sərkisyanların hakimiyyət dönəmində Qarabağ məsələsinin necə qəlizə salındığını da yaxşı bilirik.

Bu mənada əslində Paşinyan iqtidarı hələ ki "bağlı boğça" sayıla bilər. İkinci yandan, Nikol Paşinyanın qərbyönlü kursu hansısa məqamda bizə hərb yolu torpaqlarımızın daha bir qismini azad eləmək fürsəti də yarada bilər. Köçəryanın dövründə isə Rusiya buna imkan verməz. Hər halda, görünən budur ki, Moskvanın "Köçəryan layihəsi", deyəsən, işə düşüb, Moskva Köçəryan tərəfdə Paşinyana qarşı müharibəyə qoşulub. Bu da Azərbaycan üçün yeni situasiya anlamına gəlir. Bu fonda isə Bakıda "Rus NATO-su" sayılan KTMT-yə Azərbaycanın mümkün üzvlüyü ilə bağlı deputat Əli Hüseynlinin təklifi Rusiyada maraqla qarşılanıb.

*****

**"Diqqətçəkicidir ki, Azərbaycanın KTMT-yə üzvlüyü haqda ölkədə açıq diskussiya başlayan kimi Ermənistanın "xalq baş naziri" Nikol Paşinyan prezident Vladimir Putinə zəng edib. Kremlin mətbuat xidmətinin məlumatında deyilir ki, tərəflər "ikitərəfli əlaqələrə dair gündəmin bəzi aktual məsələləri", həmçinin ümumi inteqrasiya birliklərində, o sırada KTMT çərçivəsində qarşılıqlı uzlaşma məsələlərini müzakirə ediblər".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu fikir dünən Rusiyanın rosbalt.ru nəşrində Azərbaycanın "Rus NATO-su"ma qoşulmasının mümkünlüyü haqda təhlili məqalədə yer alıb. Məqalədə deyilir:** "Putin-Paşinyan söhbəti haqda kasad informasiyaya rəğmən, bir şeyi qeyd eləmək lazım gəlir: məhz KTMT mövzusu xüsusi diqqətdə olub. İndi İrəvanda oturub fal açırlar, görəsən, Paşinyan Putinlə danışıq zamanı Azərbaycanın təşkilata mümkün üzvlüyü və Rusiyanın ona reaksiyası məsələsini qaldırıbmı? Lragir.am erməni nəşri isə bu xüsusda erməniləri sakitləşdirməyə çalışıb. "Azərbaycanın üzvlüyü KTMT-də qüvvələr balansını türk amilinin xeyrinə dəyişəcək, o üzdən Putin çətin ki, bu məsələni ciddi müzakirə eləsin. Hərçənd keçici oyunlar istisna deyil. Odur ki, yaranmış vəziyyətdə İrəvan əlini daima nəbzdə saxlamalıdır ki, proseslərin mühüm inkişafını qaçırmasın. Görünür, məhz bu məqsədlə də Paşinyan Putinə zəng edib" - lragir yazıb. Nə demək olar? Bəxtiyar o kəsdir ki, inanır və ya başqasını oynadır" - rosbalt.ru əlavə edib.

Bu oyunda kimin udub, kimin uduzduğunu isə tezliklə biləcəyik. Çünki gerisayım artıq başlayıb...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018

**Almaniya kansleri Angela Merkelin Azərbaycana səfərinə sayılı günlər qaldı. Cənubi Qafqaz ölkələrinə səfəri çərçivəsində avqustun 25-də ölkəmizdə olacaq A.Merkelin Azərbaycan hökumətinin rəsmiləri ilə keçirəcəyi görüşlərdə hansı məsələləri müzakirə edəcəyi, rəsmi Bakıdan hansı istəklərinin olacağı ilə bağlı çoxsaylı fərziyyələr var.**

# Merkel Qafqazları "fəth" etməyə gəlir - Almaniya diplomatiya sərhədlərini genişləndirir

## Zahid Oruc: "Böyük dövlətlərin daha dərin maraqları, çıxarları var"

Merkelin səfəri öncəsi son bir ildə azərbaycanlı mühacirlərdən ibarət Almaniyada formalaşan "söyüş müxalifəti", eləcə də digər məsələlər gündəmə gəlib. Almaniya kanslerinin Azərbaycandan Almaniyadan siyasi sığınacaq alan və bu ilin aprelində Türkiyədə həbs edilərək ölkəmizə təhvil verilən "Quska" ləqəbli biznesmen Hüseyn Abdullayevin azadlığını xahiş edib-etməyəcəyi daha çox müzakirə mövzusudur. Buna səbəb də praktikada belə bir təcrübənin olmasıdır. Belə ki, 2015-ci ilin aprelində Azərbaycana səfər edən Fransa prezidenti Fransua Olland o zaman həbsdə olan hüquq müdafiəçisi Leyla Yunusun azad edilməsini ölkə iqtidarından xahiş etmişdi. Lakin rəsmi Bakı onun xahişini rədd etmişdi. İndi isə bu təcrübənin təkrarlanıb-təkrarlanmayacağı avqustun 25-dən sonra məlum olacaq.

Yeri gəlmişkən, hər nə qədər anti-Azərbaycan mövqeyində olsa da, Leyla Yunusla Hüseyn Abdullayevin müqayisəsi doğru olmaz. L.Yunis siyasətdən gəlmiş, Avropanın müxtəlif dairələri ilə gizli-aşkar əlaqələrə malik bir şəxsdi. Hüseyn Abdullayev isə deputat olmasına rəğmən, tərcümeyi-halındakı ləkələri hələ də təmizləyə bilməyib. O, özünə iş adamı desə də, əlinə mayanı metal qaçaqçısı və qoçu dəstəsinin başçısı kimi salıb. "Quska"nın ilkin kapitalını başqalarının mülklərinə, puluna çökməklə əldə etdiyi bu gün kimsəyə sirr deyil. Bu üzdən Almaniya kimi nüfuzlu dövlətin başçısının H.Abdullayevin xahişini edəcəyi heç inandırıcı görünmür. Amma mətbuatın bir funksiyası da ortada olan versiyalara işıq salmaq, o versiyaları müzakirəyə çıxarmaqdı.

***

**Deputat Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Angela Merkelin regiona səfəri çox əhəmiyyətli xarici siyasət hadisəsidir:** "Bu gün Avropanın əsas iqtisadi, siyasi hədəflərini, həmçinin təhlükəsizlik standartlarını müəyyənləşdirən dövlətlərdən biri məhz Almaniyadır. Uzun illərdən, xüsusilə soyuq müharibədən sonrakı dövrdə Almaniya birləşərək mühüm güc mərkəzinə çevrilib. Bu gün gerçəkdən də çox yüksək bir səviyyəyə gəlib çatıblar. Doğrudur, daxildə çox ciddi qovğalar var. Eyni zamanda Avropa Birliyi daxilində dərin rəqabət prosesləri yaşanmaqdadır. Bu səbəbdən Böyük Britaniya həmin birliyi tərk edərək, fərqli bir güc mərkəzi formalaşdırmağa çalışır. Almaniyasız keçinmək mümkün deyil. Diqqət edin, Rusiya ilə Ukrayna arasında savaşın ən şiddətli dövründə Birləşmiş Ştatlar postsovet məkanının ən ciddi probleminin həllində hakimlik rolunu rəsmi Berlinin üzərinə qoymuşdu. Bu, çox böyük bir missiya idi. Merkel əvvəlki dövrlərdə əldə edilmiş zirvələri bir qədər də irəli daşımaq istəyir. Bu gün Rusiya ilə bütün əlaqələrini qoruyub saxlamaqla bərabər Almaniya bütün sahələrdə uğurlu siyasətini davam etdirir. İndiki vaxtda Qafqazlar Almaniya üçün yenidən böyük önəm daşımağa başlayıb. Bu da mümkündür ki, bir neçə səbəblə əlaqədar olsun. Burada Rusiya amili yenə də üst səviyyədədir. Digər tərəfdən, Ermənistandakı məlum inqilabdan sonra bəzilərində belə illüziyalar yaranıb ki, region ölkələrindən olan Gürcüstandan sonra digər bir dövlət də qərbmeylli ola bilər. Belə olan təqdirdə Azərbaycanla Qərb ölkələrinin əlaqələri artacaq. Onlar daha çox bizimlə işləməyə üstünlük verəcəklər. O biri cinahda Ukrayna nə qədər önəmlidirsə, bu biri cinahda da regionun taleyi Azərbaycanda həll olunur. Gürcüstan və Ermənistanı öz qanadları altına alsalar belə, mənzərə köklü şəkildə dəyişəsi deyil. Bu o vaxta qədər davam edəcək ki, Azərbaycan xarici siyasətdə balanslı siyasətə üstünlük verəcək".



**Z.Oruc bildirib ki, Merkelin səfərində üçüncü xətt də İranla əlaqədardır:** "Bildiyiniz kimi, Trampın bütün təzyiqlərinə baxmayaraq, nə Almaniya, nə də Fransa İrandan üz döndərmək fikrində deyillər. Ən yüksək səviyyəli anlaşmalar davam edir. Hətta Qərb banklarında 1979-cu il inqilabından sonra əldə saxlanan böyük miqdarda pul vəsaitlərinin İrana qaytarılması qərarından vaz keçilməyib, sanksiyalara belə qoşulmurlar. Belə olan təqdirdə Azərbaycandan olan gözləntiləri xarici siyasət məsələlərinə, geopolitkaya daha çox bağlamaq lazımdır, nəinki fərdlərə".

**Deputat onu da qeyd etdi ki, vaxtilə Leyla Yunus Fransa üçün milyardda bir faiz belə önəm daşımayıb:** "Sadəcə, müəyyən zamanlarda kimlərdən Azərbaycana qarşı istifadə edəcəklərini yaxşı bilirlər. O zaman Leyla Yunusun adı bunların əlinə keçir. Həmin vaxtda da belə şəxslərdən faydalanırlar. Amma bu o demək deyil ki, dünya siyasətinə ciddi təsir gücü olan o böyüklükdə dövlət iş-gücünü buraxıb Leyla Yunusun gələcək taleyi, onun Azərbaycandakı durumu ilə maraqlanacaq. Bunlar qətiyyən belə deyil. Sadəcə, bizim mühit bir qədər dardır. Belə bir mənzərə yaranır ki, sən demə, bir şəxs iki dövlət arasındakı münasibətlərin məhəng daşıdır. Amma halbuki bu belə deyil. O cümlədən Hüseyn Abdullayev də Almaniya üçün strateji önəm daşıyan şəxs, ideoloq, Vladimir İliç Ulyanov deyil. O adam kimdir ki? Konkret cinayət maddələri ilə ittiham olunur. Buna adekvat da qərarlar veriləcək. Merkel hər Hüseyn Abdullayev kimilərdən ötrü dünya turuna çıxsa, o zaman kobud dillə desək, öz ölkəsini başlı-başına buraxsın, çıxıb getsin. Amma Azərbaycandan gözləntilər, istəklər var. 90-cı illərin əvvəllərini çox yaxşı xatırlayıram. Almaniyanın əsas beyin mərkəzləri, siyasi institutları regionda çox aktiv idilər. Çox qəribə idi ki, II Dünya müharibəsinə baxmayaraq, Almaniyanın imici də müsbət idi. Azərbaycanda sağçı, solçu, hətta dindar qüvvələr belə deyirdilər ki, biz Almaniya ilə yaxşı münasibətlər qurmalıyıq. Sonralar bu dövlət sanki öz maraqlarından, geopolitik hədəflərindən geri çəkildi. Ona görə də səfəri, hər halda, Trampın ayağına yazmaq mümkün deyil. Yəni bunu Amerika sifariş etməyib. Merkel Avropa Birliyinin maraqları üçün gəlir. Çox güman ki, tərəflərdən heç birini qıcıqlandırmamaq üçün hər üç ölkəyə səfər edir. Yəqin ki, Rusiya və İran da bu səfəri çox səbirsizliklə gözləyir. Ona görə də, açıq desəm, Hüseyn Abdullayev və qeyri-şəxslər burada mininci yerdə belə dayanmırlar. Böyük dövlətlərin daha dərin çıxarları, hesablamaları var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ermənistan iki od arasında

## Elçin Mirzəbəyli: "Regionda gedən nüfuz mübarizəsində kimin qalib gələcəyinə, yaxud..."

**Ermənistandakı inqilabdan sonra təcavüzkar ölkə uğrunda Rusiya və Amerikanın apardığı savaşın gücləndiyi barədə iddialar durmadan artır. Baş nazir Nikol Paşinyanın yürütdüyü ikibaşlı siyasət bu cür iddiaların getdikcə çoxalmasına səbəb olur.**



Üzdə özünü qərbmeylli siyasətçi kimi göstərən Paşinyanın Kremldən qopmaq cəsarətində olmadığı hər keçən gün güzgü kimi aydın olur. Amma bununla belə, Qərb dünyasının Gürcüstanın ardınca, digər Cənubi Qafqaz ölkəsini öz cənginə keçirmək planlarının olduğu sirr deyil. Bu savaşın hansı tərəfin üstünlüyü ilə sonuclanacağı barədə ekspertlərin mövqeləri birmənalı deyil.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a mövcud situasiyanı bu cür şərh etdi:** "Nikol Paşinyanın qütblər arasında manevr etməyə cəhd göstərməsinin obyektiv və subyektiv səbəbləri var.

**Obyektiv səbəblər bunlardır:**

- Rusiya Ermənistanın ən böyük iqtisadi və hərbi donorudur;

- Ermənistan Rusiyanın dominant rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Ermənistan KTMT-ni təhlükəsizliyinə təminat verən yeganə qurum kimi görür və hələlik bunun alternativi yoxdur.

- Azərbaycan torpaqlarının işğal altında saxlanılmasında Rusiya faktoru önəmli rol oynayır və Ermənistan mövcud status-kvonu qoruyub saxlamaq üçün bu faktordan yararlanmaq məcburiyyətindədir. Rusiya faktoru neytrallaşacağı təqdirdə Azərbaycan çox qısa müddət ərzində öz torpaqlarını işğaldan azad edə bilər ki, bunu da Nikol Paşinyan yaxşı başa düşür.

- Ermənistanın elektrik, təbii qaz, dəmir yolları, maliyyə və digər həyati əhəmiyyət kəsb edən strukturları Rusiya şirkətlərinin və banklarının tam nəzarətindədir.

- ABŞ-da böyük erməni diasporu və lobbisi var. Diaspor və lobbi Ermənistanın daxili siyasətinə ciddi şəkildə təsir etmək gücündədir. Paşinyanın hakimiyyətə gəlməsində həm ABŞ-da, həm də digər Qərb ölkələrindəki erməni diaspor qurumlarının rolu olub. Çox güman ki, Nikol Paşinyanın diaspor, elə də diasporla əlaqəsi olan beynəlxalq fondların qarşısında müəyyən öhdəlikləri var. - Paşinyan anti-Rusiya mövqeyində olan siyasətçidir. Onun kütlə tərəfindən dəstəklənməsində Rusiya əleyhinə səsləndirdiyi bəyanatların da rolu olub.

**Subyektiv səbəblər isə aşağıdakılardır:**

- Paşinyan hakimiyyətə siyasi sistemdən kənar bir şəxs kimi gəldiyi üçün hər an sabotajla qarşı-qarşıya qalmaq təhlükəsi var.

- O, Ermənistanın yeni xarici siyasət prioritetlərini müəyyənləşdirə bilməyib, yaxud bu prioritetlər, ümumiyyətlə, yoxdur.

- Paşinyanın vəd etdiyi islahatları gerçəkləşdirmək üçün nə maliyyə resursları, nə də komandası var.

- İqtisadi resurslar tamamilə köhnə komandanın - "Qarabağ klanı"nın nəzarətindədir. Ermənistanda Rusiya ilə ABŞ-ın savaşdığını iddia etmək üçün elə də ciddi bir əsas yoxdur. Buna savaş demək doğru olmazdı. Bu, daha çox əsəb müharibəsidir. Həm də konturları hələlik tam aydın görünməyən əsəb müharibəsi. Yuri Xaçaturovun ölkəni tərk etməyinə icazə verilməsi və Robert Köçəryanın həbsdən azad olunmasından sonra Nikol Paşinyanın xarizması kifayət qədər zədələnib. O, Avropa İttifaqından və ABŞ-dan gözlədiyi dəstəyi ala bilmir. Görünən odur ki, heç kim Ermənistana görə Rusiya ilə qarşı-qarşıya gəlmək niyyətində deyil. Paşinyana pərdə arxasında hansısa vədlər verilə bilər. Lakin Ermənistan cəmiyyətini yenidən düşünməyə vadar edən və silkələyən son hadisələrdən sonra Rusiyanın dominantlığına kimsə şübhə etmir".

**Politoloq iki gün öncə Paşinyanın keçirdiyi mitinqin vəd olunan effekti vermədiyini düşünür:** "Bu mitinq, əksinə Nikolun mövqelərinin xeyli zəiflədiyi təəssüratını yaratdı. Baş nazirin verdiyi bəyanatlardakı ziddiyyətlər, hakimiyyətini qorumaq üçün konstitusiyaya dəyişiklik etmək niyyətində olduğunu bəyan etməsi də bunu sübuta yetirir. Bir müddət sükuta qərq olan "respublikaçılar" da artıq daha uca səslə danışmağa və Paşinyanı məsxərəyə qoymağa başlayıblar. Düşünürəm ki, bu, Nikol Paşinyanın xarizmasının yerlə bir edilməsinə yönəlmiş kampaniyanın başlanğıcıdır. Müəyyən bir vaxtdan sonra Nikolun öz tərəfdarları arasında da onu məsxərəyə qoyanların sayı artacaq. Bu, keçmiş "KQB" məktəbinin dəfələrlə sınaqdan çıxarılmış texnologiyasıdır. İndiki şəraitdə Paşinyanın açıq şəkildə qərbə meyllənməsini gözləmirəm. Əgər bu baş verərsə, o zaman baş nazirin başı ciddi şəkildə ağrıyacaq. Paşinyanın getdikcə ondan əli üzülən kütlədən başqa heç nəyi yoxdur. Bu baxımdan da kütlə ilə və kütləyə oynayır. Ona mitinq keçirmək üçün meydan veriblər və proses insanlar mitinqə gəlməkdən yorulana kimi davam edəcək. Gürcüstan hələlik NATO-ya üzv olmayıb. Avropa İttifaqı ilə münasibətləri hələlik Rusiyanın maraqlarına ciddi şəkildə təsir göstərəcək səviyyədə deyil. Əgər Rusiya Abxaziya və Cənubi Osetiya ilə bağlı Gürcüstana ümidverici mesajlar verərsə, rəsmi Tiflisin mövqeyində dəyişikliklərin nəzərə çarpacağı ehtimalı hər zaman var. Moskva isə hər zaman olduğu kimi daha az verməyə və daha çox almağa çalışır. Bu, Rusiyanın ənənəvi üslubudur. Rusiyanın Gürcüstana, yaxud Ermənistana münasibətdə vaxt problemi yoxdur. O, hələ bir neçə il, bəlkə də daha çox mövcud vəziyyəti uzada və gərginliyi qoruyub saxlaya bilər. Regionda gedən nüfuz mübarizəsində kimin qalib gələcəyinə, yaxud məğlub olacağına biz qərar verə bilmərik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018



# "Quşdurlar, görmürsən, siqaret çəkirlər?"

Samir SARI

**Uzun illər öncə, bizimkilərin Türkiyəyə yeni-yeni ayaq açdığı vaxtlarda tanınmış həmvətənlərimizdən birinin yolu Türkiyəyə düşür, bir müddət qardaş ölkədə yaşayası olur. Hər şey yaxşıdır, normaldır, amma eloğlumuz hansı məclisə, toplantıya gedirsə, görür ki, qadınlar fıshafısla siqaret çəkirlər.**

O, köhnə kişilərdən olduğu və qadınların siqaret çəkməsinə qətiyyətlə qarşı olduğu üçün bir gün öz narazılığını yaxın dostlarının yanında dilə gətirir, deyir, arkadaşlar, bu nədir sizdə, hanımlar nə kadar siqara içirlər...

Anadolulu arkadaşlar onun bu iradından şaşırırlar, deyirlər, abi, nasıl yani, sizdə hanımlar siqara içmiyormu, məsala, sənin hanım siqara içməzmi?

Eloğlumuz görür ki, yox, bunlarla onun frekansı tamamən ayrıdır, bu istiqamətdə davam etsə, onların xətrinə dəyəcək, ilk döngədən saga burulur və deyir: "Kardeşlər, yo, bizim hanım da siqara içiyor, amma bu kadar yok".

Hər dəfə hansısa qadının siqaret çəkməsi, içki içməsi məsələsi ölkə gündəminin baş mövzusuna çevriləndə yadıma bu əhvalat düşür.

Tərs kimi, bu sayaq müzakirələr ildən-ilə intensivləşir və şiddətlənir. Artıq elə bir durum yetişib ki, bu gün-sabah siqaret çəkən və ya içki içən qadınların daş-qalaq edilməsi təklifi səslənəcək. Zatən, o cür edənlərin üzərində elə bir basqı qurulur ki, çıxıb "qələt eləmişəm, bir də eləmərəm" ifadələri keçən brifinq-zad keçirirlər.

Qadınların siqaret çəkməsi bizim camaata dövri-qədimdən çöçün gəlir. Əslində bu ölkədə qadınların siqaret çəkməməsi bizim xanımların unikal üstünlüyüdür və buna görə onlara eşq olsun. Amma birdəfəlik bilməliyik ki, bu, tibbi-fizioloji baxımdan qəbahət və xoşagəlməz işdir, əxlaq məsələsinə dəxli yoxdur.

Yuxarıda dediyimiz kimi, Türkiyədə, Ukraynada, eləcə də Avropa və Amerikada qadınlar kütləvi şəkildə siqaret çəkirlər (*eləcə də şampan şərabı, likör içirlər*) və tam əksəriyyətinin əxlaqına söz yoxdur. Bəzən bizimkilər səhv salır, hardasa siqaret çəkən qadın görəndə elə bilirlər ki, bu asan əldə olunan qadınlardandır, yaxınlaşırlarE və umsuq olurlar. Bir dəfə şəxsən görmüşəm, Kobuletidə bir azərbaycanlı gənc dostuna siqaret çəkən qızları göstərib deyirdi: "Ə, qorxma, yaxınlaş, quşdular, sən öl. Görmürsən, siqaret çəkirlər?"

Qızlar isə "quş"-filan deyildilər, sadəcə, kitab oxuya-oxuya, telefonda qurdalana-qurdalana, eləcə də siqaret çəkə-çəkə özlərini günə verirdilər.

Bizdə "quş" hesab edilmək üzündəndir ki, siqaretə və içkiyə meyli olan qadınlar bunu ətraflarından gizlədirlər. Çalışırlar ki, yad gözlərin qarşısında belə bir qəbahətə yol verməsinlər. Etsələr, dərhal camaat gözünü onlara zilləyəcək, hətta yaxınlaşıb söz atanlar olacaq. Qayda budur.

100 il bundan əvvəl də belə olub. Boris Akuninin 1914-cü ilin Bakısından bəhs edən "Qara Şəhər" romanında biznesmen qadın Validbəyova siqareti hətta qulluqçularından da gizli çəkir, bilir ki, üstü açılsa, el içində biabır-dəsgah olacaq.

Bu xüsusda istisna hal bircə Hitler-Stalin müharibəsi dövründə olub. O vaxtlar qadınlar kütləvi şəkildə siqaret, maxorka çəkiblər. İnanmayanlar yaşlı nənələrdən soruşsunlar.

Bu da ona görə olub ki, müharibənin bütün yükü qadınların çiyninə düşüb və onlar, bir növ, kişiləşiblər, üstəlik, hesab edirmişlər ki, papiros (bizim kəndçi qarıların sözü olmasın, "papruz") dərdi-qəmi azaldır. İntəhası, ərlər, qardaşlar müharibədən qayıdandan sonra qadınların çoxu bu zərərli vərdişi tərgidiblər. Çünki arvadı papiros çəkən heç bir kişi dükanın qabağına, poçtun həyətinə, kəndin çayxanasına çıxa bilməzdi.

Bəli, belədir, bizim camaat qadınların içki içməsini, siqaret çəkməsini götürmür, qeyzlənir.

Qadınların siqaretdən, içkidən uzaq olması yaxşı şeydir. Ancaq bu, zorakılıqla, təzyiqlə ediləcək iş deyil. Bunlardan imtina könüllü, şüurlu şəkildə olmalıdır. Bu, kişilərə də aiddir. Kişidirlər deyə, siqaret və içkinin küpünə girmək kimi eksklüziv hüquqları yoxdur.

Biz də cəmiyyət olaraq, nəhayət, anlamalıyıq ki, siqaret və içki qəbul eləmək zərərli vərdiş olsa da, pozğunluq, əxlaqsızlıq göstəricisi deyil, adamın şəxsi işidir, özü bilər.

Bir ara maşın sürən qadınları da "quş" hesab edirdilər. Sonradan bu stereotip qırıq-qırıq oldu getdi.

**Son həftələrdə Azərbaycanın yerləşdiyi regionda yerləşən 3 böyük ölkə - İran, Rusiya və Türkiyə ABŞ sanksiyaları səbəbindən ciddi gərginliklə üzləşdilər. Hər üç ölkədə milli valyutalar dəyərsizləşdi, iqtisadiyyatın müxtəlif sahələrində təlatümlər meydana gəldi.**



# ABŞ-ın dünya nəhəngi şirkətləri və büdcələri-siyahı

## Tramp onların gücündən sui-istifadə edir

Qeyd edək ki, son aylarda ABŞ yalnız adları çəkilən ölkələrlə deyil, Çin və Avropa ilə də iqtisadi problemlər yaşamaqdadır. Bu ölkənin prezidenti Donald Tramp az qala hamıya qarşı iqtisadi sanksiyalar, məhdudiyyətlər, yaxud əngəllər tətbiq etməkdə qərarlı görsənir.

ABŞ-ı bütün digər dövlətlərə iqtisadi cəbhədə meydan oxuyacaq qədər güclü edən nədir? Bu ölkənin gücünü dünyada hansı şirkətlər tanıdır?

Suallara cavab tapmaq üçün onu qeyd etmək kifayətdir ki, ABŞ dünyanın ən böyük iqtisadiyyatına malik tək ölkədir. Hazırda dünya üzrə ümumi daxili məhsulun 30 faizə qədəri məhz bu ölkədə istehsal olunur. Elə buna görə də dünyanın ən böyük şirkətlərinin, korporasiyalarının əksəriyyəti ABŞ mənşəlidir. İqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada ilk onluqda ABŞ şirkətləri yer almasın. Belə demək mümkündürsə, dünyanın ən varlı adamları da amerikalıdır, ən böyük şirkətləri də.

Böyük Britaniyaya məxsus "İnterbrand" konsaltinq agentliyinin hər il tərtib etdiyi dünyanın brend şirkətlərinin reytingində ilk onluğun 7-si ABŞ-a məxsusdur. Bu reytinqin 2018-ci il nəticələrində ilk yeri tutan "Apple" şirkətinin bazar dəyəri bu yaxınlarda 1 trilyon dolları ötüb. Belə ki, avqustun 2-də Apple səhmləri Nyu-York Fond Birjasında hər səhm üçün 201,50 dollar səviyyəsindən 2,75 faiz artaraq 207,05 dollara yüksəlib.

Nəticədə, rəsmi rəqəmlərə görə, bazar dəyəri 1 trilyon dollara çatan Apple, dəyəri 1 trilyon dollar olan ilk amerikan şirkəti oldu. "Apple"nin açıqladığı göstəricilərə əsasən, şirkətin gəliri 17,3 faiz artaraq 53,26 milyard dollar təşkil edib. Bu ilin aprel-iyun aylarında şirkətin xalis mənfəəti isə ötən ilin eyni dövrü ilə müqayisədə 32,1 faiz artaraq 11,52 milyard dollar olub.

Apple 1976-cı ildə yaradılan, hazırda dünyanın ən böyük proqram təminatçılarından biri olan kompüter firmasıdır.

Şirkətin mərkəzi ofisi ABŞ-ın Kaliforniya ştatının Kupertino şəhərində yerləşir. Apple Macintosh, iPhone, Mac Book, iPod və iPad şirkətin ən tanınan məhsullarıdır. Şirkətin 116 min nəfər işçisi var, illik dövriyyəsi 232,5 milyard dollar təşkil edir.

İkinci yeri tutan "Amazon" virtual alqı-satqı şirkətinin dəyəri 938 milyard dollara çatıb. 2018-ci ilin əvvəlindən onun səhmləri 64,3 faiz, son bir ildə isə 95,5 faiz artıb. Yaxın aylarda "Amazon"un da dəyər baxımından "Apple"ın rekordunu yeniləyəcəyi gözlənilir.

"Amazon" şirkətinin əsası Cef Bezos tərəfindən 1994-cü ildə qoyulub. Hazırda C.Bezos 150 milyard dollarlıq sərvəti ilə dünyanın ən varlı adamları siyahısına başçılıq edir. Şirkətin illik dövriyyəsi 178 milyard dollar civarındadır, 566 min nəfər işçisi var.

Bazar dəyəri 850 milyard dolları ötən "Google" şirkəti həmvətənlərini əzmlə təqib edir. Xüsusilə reklam gəlirləri yüksək olan şirkətin də bu ilin sonunadək 1 trilyon dollarlıq həddi keçəcəyi gözlənilir.

Şirkətin əsası 1995-ci ildə ABŞ-da biri rusiyalı mühacir olan iki tələbə tərəfindən qoyulub. Ötən il illik gəliri 110,8 milyard dollar təşkil edib. İşçilərinin sayı 81 min nəfərə yaxındır.

Dünyanın dördüncü bahalı brendi olan "Mikrosoft" korporasiyası da ABŞ-a məxsusdur. Onun mənzil-qərargahı Vaşinqton ştatının Redmond şəhərində yerləşir. Bazar dəyəri 700 milyard dollar hesablanan "Mikrosoft"un yaradıcısı Bill Geyts uzun illər boyu dünyanın ən varlı adamlarının siyahısına başçılıq edib. 2017-ci ildə illik dövriyyəsi 87 milyard dollara yaxın olub. 120,8 min nəfər işçisi var

Beşinci bahalı brend olan "Coca-Cola"nın artıq 150 yaşına az qalıb. Əsası 1886-cı ildə ABŞ-ın Corciya ştatında qoyulub. Onun məhsulları hazırda dünyanın 200-dən çox ölkəsində satılır. Bəzi məlumatlara görə, dünya əhalisinin 94 faizdən çoxunun "Coca-Cola" barədə məlumatı var. Bu brendin bazar dəyəri 300 milyard dollar hesablanır. Ötənilki dövriyyəsi 35,4 milyard dollar təşkil edib.

Qiymətli brendlər siyahısında yeddinci olan "Disney" dünya əyləncə biznesinin liderlərindən biri sayılır. Əsası 1923-cü ildə Uolter və Roy Disneylər tərəfindən qoyulub. Bazar dəyəri 210 milyard dollar hesablanır. Ötənilki dövriyyəsi 57 milyard dollar olub. 200 min nəfərə yaxın işçisi var.

Nəhayət, Interbrand tərəfindən dünyanın 10-cu bahalı brendi adına layiq görülən IBM şirkəti də ABŞ-a məxsusdur. Əsası 1880-ci illərdə qoyulan bu şirkətin əsas fəaliyyət sferası aparat və proqram təminatı, İT, konsaltinq xidmətlərinin təqdimatıdır. IBM ABŞ hərbi aviasiyasının proqram təminatı sahəsində ciddi uğurlara imza atmış şirkətlərdən biridir. Bazar dəyəri 160 milyard dollara yaxın, illik dövriyyəsi 81 milyard dollardır. 380 min nəfərə yaxın işçisi var.

Bu şirkətlərdən əlavə, ABŞ-ın digər reytinq hesabatlarında yer tutan nəhəng korporasiyaları da var. Bu korporasiyalar ən müxtəlif sahələrdə fəaliyyət göstərir. Bunlar arasında dünyanın az qala hər nöqtəsinə səpələnmiş McDonalds qəlyanaltı şəbəkəsindən tutmuş, Nike, Calvin Klein kimi geyim firmalarına, "Boeing" kimi dünya aviasiya nəhənginə, General Motors, Ford və Fiat Chrysler kimi avtomobil sənayesi liderlərinə, silah-sursat, hərbi texnika istehsalçısı olan Lockheed Martin Corporation-a, Facebook-a, neft nəhəngi "Exxon Mobil"ə qədər çoxsaylı şirkətlər var. Onların hər birinin dəyəri bir neçə on milyard dollarla ölçülür.

Beləliklə, görünən odur ki, dünya nəhənglərinin vətəni olan ABŞ hegemon mövqeyindən istənilən zaman, istənilən ölkəyə qarşı rahatlıqla istifadə edə bilir. D.Trampın hamıya qarşı arxayınlıqla iqtisadi savaş açmasının arxasında da bu hegemoniya dayanır. Necə deyərlər, başında dayandığı ölkənin iqtisadi gücünü bilir. Amma onun bu gücü hamıya, hər kəsə qarşı vuruşmaq üçün istifadə etməklə nə qədər uzağa gedə biləcəyini söyləmək çətindir.

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 157 (7046) 22 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistanda "məxməri inqilab"ın 100 günü arxada qaldı. Bu müddətdə işğalçı ölkənin olan-qalan əhalisinin güzəranında, sosial-iqtisadi durumunda yaxşıya doğru ciddi dəyişikliyin baş verməməsi öz yerində, Qarabağ probleminin dinc həll perspektivinə də pozitiv yöndə aydınıq gəlmədi, dəyişiklik olmadı. Əksinə, "Qarabağ klanı"nın nümayəndəsi olmayan yeni baş nazir Nikol Paşinyanın qeyri-peşəkarlığından doğan absurd tələblər nizamlama prosesini daha əlçatmaz elədi.**






# İrəvanın Kremlə qarşı riskli taktikası - Qarabağı nə gözləyir?

## İnqilabçı baş nazir Paşinyanın siyasi aqibəti haqda ekspert rəyləri; "Moskvaya sürpriz etmək istəyən Ermənistan hakimiyyətinin özü sürprizlə üzləşə bilər..."

"Sizdən gizli Qarabağla bağlı heç bir kağızı imzalamaram. Variant olsa, bura gələcəyəm, sizə təqdim edəcəyəm, özünüz qərar verərsiniz, bu variantla gedək, ya yox". Bu sözləri ötən həftə o, özünün baş nazirliyinin 100-cü günü ilə bağlı İrəvanın Respublika meydanında təşkil elədiyi mitinqdə deyib. Göründüyü kimi, Paşinyan Qarabağ məsələsində öz üzərinə əsas məsuliyyəti götürməyə hazırlaşmır, onu erməni xalqının üstünə atmaq istəyir. Eyni zamanda populistcəsinə sələflərini (Serj Sərkisyan və Robert Köçəryan) Azərbaycana "torpaq güzəşti" etməyə hazırlaşmaqda ittiham edir. Halbuki belə bir şey olmayıb.

**Belə ki, 17 avqust mitinqində o, rəqiblərini KİV-lərin alınmasında, sosial şəbəkələrdə uydurma hesabların yaradılmasında və təzə hökumətin hakimiyyətə "torpaqları təhvil vermək" üçün gəldiyi barədə şayiələr yaymaqda ittiham edib. Onun iddiasına görə, əslində bunu ondan əvvəlkilər etmək istəyiblər və onun əlində bunu sübut edən bütün sənədlər var. Sitat:** "Biz sülh yolu ilə tənzimlənməyə hazırıq. Lakin mənim torpaqları təhvil vermək niyyətində olduğumdan şübhələnən anlamır ki, məsələni hökumət həll etmir, xalq həll edir".

Paşinyan bunu da vurğulayıb ki, indiyə kimi Qarabağ üzrə heç bir danışıq aparmayıb. Lakin o, gec-tez danışıqlar prosesinə qatılmağa məhkumdur. Çünki əks təqdirdə, müharibə qaçılmaz olacaq. Erməni analitiklərin özləri də vaxtaşırı etiraf edirlər ki, "Ən pis danışıqlar müharibədən yaxşıdır".

*****

Bəs 17 avqust izdihamlı mitinqi Paşinyan iqtidarına hansısa divident gətirdimi və bunun Qarabağ ixtilafına hansısa təsiri gözlənilirmi?

**"Nikol Paşinyanın 17 avqust mitinqi onun gücünü heç də artırmır". "Yeni Müsavat"ın məlumatına görə, bunu politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, Paşinyanın mövqeyinin güclənməsinə indi üç amil əngəl yaradır:** "Birincisi, onun parlamentdəki mövqeyinin zəifliyidir. O, güclə baş nazir mandatı alıb. Hansısa partiyanın ona qarşı səsvermə proseduruna başlamasını təklif etməsi yetərlidir ki, Paşinyan öz kreslosunu itirsin. Məsələn, Respublika və Daşnaksütyun partiyaları 105 yerlik parlamentdə 57 səsə malikdir. Bu iki partiya qeyri-rəsmi eks-prezident Robert Köçəryanı dəstəkləyir. İkincisi, Paşinyana qarşı olan müxalifətin kifayət qədər maliyyə və media resursu var. Paşinyanın hakimiyyətdə olmasına baxmayaraq administrativ resurs hələ onun xeyrinə deyil. Robert Köçəryan həbsdən azad olunan kimi Daşnaksütyun Partiyasının televiziyasında onun müsahibəsi yayımlandı və ya məlum oldu ki, Köçəryanı həbsdən azad edən hakim vaxtilə prezident administrasiyasında onun işçisi olub".

**Politoloq üçüncü əngəl qismində haqlı olaraq, Rusiya amilini görür:** "Köçəryan Paşinyanın "Rusiya Ermənistandakı yeni şərtlərə adaptasiya olunmalıdır" sözlərini kəskin tənqid edib. Onun Moskvaya daha çox yaxınlığı Paşinyanın problemlərini artıracaq. Nəhayət, Paşinyanın hazırkı reytinqi hələ yüksək olsa da, onun əlində iqtisadi islahatları dərinləşdirmək üçün resursları azdır, əngəllər isə çoxdur. Ermənistanda növbədənkənar parlament seçkisi 2019-cu ilin mayında keçiriləcək. Həmin tarixə qədər Paşinyana olan dəstək azala da bilər".

*****

**"Yeni Müsavat"ın məlumatına görə, öz növbəsində rusiyalı siyasi icmalçı Mixail Belyayev bu xüsusda "Vestnik Kavkaza" portalındakı müəllif məqaləsində Moskva amilinə toxunaraq yazıb:** "Ermənistan hakimiyyətinin KTMT baş katibi Yuri Xaçaturovu həbs eləməklə yaratdığı hay-küylü insident azmış kimi, Paşinyanın komandası Moskvaya münasibətdə təxribatçı addımları davam etdirir. Belə ki, bu dəfə Cənubi Qafqaz Dəmiryolu şirkətində vergi pozuntuları ilə bağlı yoxlamalara başlanıb və 9.7 milyon dram məbləğində vergidən yayınma ittihamı üzrə cinayət işi açılıb. Bu hadisəni inqilabdan sonra artıq adiləşən "razborka"lar sırasına aid eləmək olardı, bir məsələ olmasaydı".

**Analitik bu yerdə diqqəti Ermənistandakı Cənubi Qafqaz Dəmiryolu şirkətinin Rusiya Dəmiryolları şirkətinin törəmə qurumu olmasına çəkir.** "Əvvəlcə KTMT baş katibinin həbsi baş verdi, indi isə Cənubi Qafqaz dəmir yolunda axtarışlar aparılır. Əlamətdardır ki, bütün bunlar baş nazir Nikol Paşinyanın forma və məzmunca olduqca kəskin bəyanatı fonunda baş verir. Paşinyan demişdi ki, "Rusiya Ermənistandakı yeni situasiyaya adaptasiya olmalıdır". Doğrudanmı Qərbdən dəstək üçün ona tərəf ümidlə boylanan erməni hakimiyyəti anlamır ki, sabah elə özləri də "yeni situasiya" ilə üzləşə bilərlər? Özü də bu, yeni erməni hakimiyyətinin adaptasiyası ilə bağlı heç də ilk fakt deyil", - deyə rusiyalı siyasi icmalçı xəbərdarlıq edib.

**Digər politoloqlar da Paşinyan iqtidarının siyasi gələcəyi ilə bağlı nikbin mövqedə deyillər.**

**"Ermənistanın keçmiş prezidenti Serj Sərkisyanın başçılıq etdiyi Respublika Partiyasının üzvü Eduard Şarmazanovun Nikol Paşinyanın siyasi hakimiyyətinə qarşı sarsıdıcı tənqidlərində həqiqət payı, mövcud reallıqları əks etdirən nüanslar var. Şarmazanov Rusiya ilə münasibətlərin gərginləşməkdə olduğuna dair növbəti bəyanatı ilə bir daha Paşinyana mesajlar göndərir". Bu sözləri politoloq Qabil Hüseynli Ermənistan parlamentinin vitse-spikeri Şarmazanovun Paşinyan hökumətinin "pinq-ponq" siyasəti yürütdüyü və Rusiyadan təhlükə olduğuna dair bəyanatını şərh edərkən deyib (teleqraf.com).**

**Onun sözlərinə görə, Şarmazanov bununla artıq bir neçə dəfədir müxalif Serj Sərkisyanın nümayəndəsi kimi Nikol Paşinyanın mövcud hakimiyyətini ciddi surətdə tənqid edir:** "Xəzərin statusu ilə bağlı Konvensiya imzalananda Şarmazanov bildirmişdi ki, Ermənistanda siyasilərin bir-biri ilə didişdiyi vaxtda Azərbaycan Xəzərin statusu ilə bağlı Rusiya ilə birlikdə müqaviləyə imza atır və özündə həm nəqliyyat, həm də dəniz resursları və karbohidrogen ehtiyatları olan nəhəng layihəni reallaşdırır".

**Politoloqun fikrincə, Ermənistan parlamentinin vitse-spikerinin son zamanlar xeyli fəallaşması onu göstərir ki, Robert Köçəryanın partiya yaratmaq haqda bəyanatından və Serj Sarkisyanın istintaq komissiyasına çağırılması ilə əlaqədar Respublikaçı Partiyasının sıralarında canlanma hiss olunur:** "Əsasını "Qarabağ klanı" təşkil etsə də, kifayət qədər böyük oliqarxlar və tanınmış iş adamlarının dəstək verdiyi Respublika Partiyası gələcəkdə Köçəryanın formalaşdıra biləcəyi siyasi partiya ilə ittifaqa girərsə, güclü müxalifət düşərgəsi yarada bilərlər".

**Qabil Hüseynli Rusiya mətbuatının iki ölkə arasında gərgin münasibətləri açıq surətdə şərh etdiyinə və rus siyasilərinin bir-birinin ardınca İrəvana mesajlar ötürdüklərinə də diqqət çəkib:** "Köçəryan və Yuri Xaçaturovun həbsdən azad edilməsi Kremlin təzyiqi ilə oldu. Bu hadisələr Paşinyan hakimiyyətinin nə qədər oyuncaq və itaətkar olduğunu aydın göstərir. Paşinyan Rusiyaya yaltaqlanır, az qala hər gün Moskvaya xoş gəlmək üçün müəyyən siyasi komplimentlərdən istifadə edir. Ona qarşı siyasi müxalifət formalaşıb və ayaq üstündə dik durmağa başlayıb. Hələ ki sözçü sifətində Şarmazanov çıxış edirsə, tezliklə sıralarından başqa millət vəkillərinin və yaxud Köçəryanın özünün də aktiv siyasi bəyanatlarla çıxış edəcəyinin şahidi olacağıq. Zənnimcə, bu, bəlli ssenaridir və ehtimal edirəm ki, Moskva tərəfindən hazırlanıb".

Beləcə, yuxarıdakı politoloji rəylərdən bu qənaətə gəlmək olar ki, Rusiyaya sürpriz etmək istəyən Ermənistanın hazırkı hakimiyyətinin özü Moskvanın sürprizi ilə qarşılaşa bilər. Söhbət həm də Qarabağla bağlı sürprizdən gedir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Dünya üçün təzə mizan-tərəzi: “Made in USA”

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**ABŞ dünyanın şəriksiz ağası olmaq niyyətindədir. Bunun artıq o yan-bu yanı yoxdur. Qorxulu iddiadır. Birinci ona görə ki, Çingiz xandan tutmuş, makedoniyalı İsgəndərə kimi hələ heç kimə bu, müyəssər olmayıb. Altını isə bəşəriyyət, o cümlədən müstəmləkəçi ölkənin öz xalqı çəkib. İkinci o səbəbə ki, Allahdan başqa heç bir güc əbədi deyil.**

Müttəfiq Türkiyənin başına gətirilən oyunlar olmasaydı, yenə düşünmək olardı ki, söhbət sırf ABŞ-ın öz ənənəvi, tarixi rəqibləri ilə apardığı geosiyasi mübarizədən gedir. Rusiya, Çin, İran, Şimali Koreya, Venesuela, Meksika... bu ölkələrə qarşı təzyiq, sanksiya, hədə-qorxu dilini haradasa anlamaq mümkün idi, ta ki NATO üzrə aparıcı müttəfiqlər - Avropa Birliyi ölkələri, Kanada və Türkiyə də “Sem dayı”nın qəzəbinə tuş gəlincə.

Demək ki, ABŞ hamının ona biyət eləməsini istəyir. Özü də buna siyasətdə “piyada” olan prezident D.Trampın əli ilə nail olmaq istəyirlər. Bu yolda əsas vasitə isə dollardır. Doğru, ABŞ dolları iqtisadi onun əlində qüdrətli silahdır. Ancaq qlobal sülhün təməlini qazıyan bu yanlış siyasəti tərcih edən Amerika yönətimləri bir şeyi unudurlar: iqtisadi savaşla başqa dövlətin, lap elə müttəfiqin iqtisadiyyatına, onun əhalisinin rifahına zərər vurmaq, minlərlə insanı işsiz qoymaq olar, oranı bombalamaq da olar, fəqət, həmin dövlətin xalqının rəğbətini qazanmaq olmaz.

Xalqların dəstək vermədiyi siyasət, strategiyalar isə enində-sonunda iflasa məhkumdur. İdeya müəllifi hansı dövlət olur-olsun. ABŞ dünyadan böyük olmayacaq ki. Artıq Amerikanın hədəf götürdüyü ölkələr demokratik və ya avtoritar sistemli olmasından, tapındığı dindən asılı olmayaraq, ortaq təhlükəyə qarşı instinktiv şəkildə birləşməyə kurs götürüb.

Ancaq görünür, Ağ Evdə və Konqresdə oturan amerikalı qırğılara ABŞ-ın hələ dövlət kimi mövcud olmadığı uzaq tarixin, eləcə də onun özünün iştirakçı olduğu yaxın tarixin - Vyetnam müharibəsinin acı təcrübəsi dərs olmayıb. Xalqla müharibənin sonu onu başladanlar üçün həmişə acınacaqlı bitir.

“Sizin dollarınız varsa, bizim də Allahımız var” deyib prezident Ərdoğan. Yəni “bizə qarşı allahsız, ədalətsiz davranırsınız”. Özü də kim - müttəfiq ABŞ! Sitatdan çıxan ikinci ismarış bu: “Türkiyəyə qarşı düşməncəsinə davranışın iqtisadi əsası yoxdur, Amerika qərəzlidir!” Deməli, hədəf həm də Türkiyə xalqıdır. Türk xalqı isə yaxşılıqları və pislikləri heç vaxt unutmayan qürurlu bir toplum. Ehtiyac içində olsa belə, heç vaxt öz şərəfini bazarlığa çıxarmayan bir millət...

Açığı, dünənədək Azərbaycanın demokratik təfəkkürlü insanlarında da belə düşüncə var idi ki, dünyada universal dəyərlərin oturuşması ABŞ-ın prioritet verdiyi məsələlər sırasındadır. Lakin PKK terrorçularına davam edən hərbi dəstək, seçkilərlə idarə olunan Türkiyədəki 2016-cı il hərbi çevriliş cəhdində Amerikanın iştirakı və hazırda qardaş ölkəyə qarşı açılan iqtisadi savaş bunun ilğım olduğunu göstərdi. Nə yazıq ki, ABŞ hazırda dünya demokratiya hərəkatına yalnız zərbə vurmaqla məşğuldur.

Son yaşananların Azərbaycana da dəxli var. Misal üçün, Türkiyədə baş verənlərdən dolayı deputat Fazil Mustafa belə bir ifadə işlədib ki, “ABŞ Qarabağı mülayim şəkildə, yəni dinc yolla Ermənistana vermək istəyir”. Əslində Vaşinqtonun pərdəarxası “ədaləti”ndən xəbərdarıq. Prezident İlham Əliyev bir dəfə hətta söyləmişdi ki, separatçı rejimin “müstəqilliyini” tanımaq üçün Azərbaycana təzyiq edirlər. Yəni bizdən Ermənistana torpaq güzəşti gözləyirlər.

Sizcə, o hansı dövlət ola? Məntiq pıçıldayır ki, bu, regionda tez-bazar möhkəmlənib Rusiyanı oradan çıxarmağa çalışan, Ermənistandakı son “məxməri inqilabın” memarı ABŞ-dır. Qarabağ probleminin “ən kəsə” həll yolunu isə amerikanlar Azərbaycanın xristian Ermənistana ərazi güzəştində görürlər - onunla işğalçı kimi davranmaq, ona qulaqburması verib sanksiyalar tətbiq eləmək əvəzinə! Necə ki, Krıma görə Rusiyaya sanksiyalar tətbiq edirlər. Bu da mizan-tərəzisinə güvəndiyimiz Amerika!

Yaxud necə olur Ankaranın tələb elədiyi Fətulla Gülənə gələndə ABŞ rəsmiləri “müstəqil məhkəmələrin işinə qarışa bilmərik” deyirlər, amma casus-keşiş Bronsonla bağlı Türkiyə ədalət məhkəməsinin qərarını veclərinə almır, “Bronson günahsızdır, dərhal buraxın!” deyə, hikkə göstərirlər? “Güclü həmişə haqlıdır” məntiqimi?

Amma haqlı da (Türkiyə) güclü ola bilir. Bu dəfə daş qayaya rast gəlib...

**ABŞ-la Türkiyə arasında gərginlik davam edir. Gərginliyin yaranmasının əsas tərəfi kimi ABŞ-ın adı hallanır. Belə ki, ABŞ son günlər Türkiyə qarşısı çox sərt tələblər qoyaraq həbsdə olan keşiş Bronsonun azad olunmasını, noyabra qədər neft alışının dayandırılmasına dair İranla əlaqələrin kəsilməsini, S-400-lərin alışından imtinanı istəyib, gömrük rüsumlarında artımlar edir. Rəsmi Ankara isə bütün bu tələbləri yerinə yetirməkdən imtina edərək, Türkiyənin müstəqil ölkə olduğunu, kimsənin köləsi olmadığını bildirir.**

# Türkiyə ABŞ-ın tələbləri ilə razılaşsaydı, nə baş verərdi? - iki rəy

## Politoloqlar hesab edirlər ki, ABŞ bu cür sərt tələblərlə Türkiyə dövlətini zəiflətməyə çalışır



Bəs Türkiyə ABŞ-ın tələbləri ilə razılaşsaydı, nə baş verərdi?

**“Yeni Müsavat”a danışan Türkiyədə yaşayan politoloq Toğrul İsmayıl bildirib ki, burada konkret olaraq ABŞ-ın Türkiyə dövlətinə qarşı apardığı siyasətdən söhbət gedir:**

“ABŞ-ın bu gün Türkiyəyə yönəltdiyi məsələlər hüquq xaricində, beynəlxalq normalara zidd və bir müstəqil dövləti diz çökdürmək politikasından başqa bir şey deyil. Burada Ərdoğanı sevib-sevməməkdən söhbət getmir. Yanaşma bu cür olmamalıdır. Burada əsas məsələ Türkiyəyə qarşı olan sərt tələblərdən gedir. Bu tələblərin yerinə yetirilməsi isə doğru deyil. İkinci bir tərəfdən isə Trampın Türkiyədən gələn polad və alüminiumdan olan mallara qarşı iki dəfə vergi artırması da Dünya Ticarət Təşkilatının anlaşmalarına ziddir. Yəni atılan addımlar həm hüquqi baxımdan doğru deyil, həm də ikili dövlət münasibətlərinə sığmır. Çox uzağa getməyək, elə Trampın "tvit"lərinə baxsaq, məsələ aydın olar. Tramp açıq şəkildə Türkiyə iqtisadiyyatını zəiflətməyə, Türkiyə lirəsinin dəyərini düşürməyə və qısası, bu ölkəni diz çökdürməyə çalışır. Bir müqayisə də edək, İrana qarşı 3 iddia irəli sürürsə, Türkiyəyə qarşı 8 iddia tələb edir. ABŞ Türkiyədən qeyri-şərtsiz olaraq İrana qarşı sanksiyalara qatılmağı tələb edir. Səbəbi nədir? Digər tərəfdən, Türkiyə ilə İran arasında təbii qaz müqaviləsi var. Hələ 1990-cı illərdə bağlanan müqavilələrə görə, Türkiyə İrandan aldığı qazı istifadə etsə də, etməsə də pulunu ödəməlidir. Sanksiyaya qoşularsa, Türkiyə ciddi şəkildə maddi zərər yaşayacaq. ABŞ isə bu zərəri qarşılamaq fikrində deyil. O zaman Türkiyə nə ölkədir ki, ABŞ hər nə deyirsə, etsin? Bütün bunlar Türkiyəni ciddi şəkildə böhrana sürükləyə bilər. Eyni zamanda ABŞ İrana qarşı atdığı sanksiya addımlarını öz istəyi əsasında edib. Yəni nə BMT-nin, nə də NATO müttəfiqlərinin, Avropa Birliyinin bununla bağlı qərarı yoxdur. Türkiyədən də öz kaprizlərinə qoşulmağı tələb edir. Digər tərəfdən isə qeyri-şərtsiz olaraq rahibin və Türkiyədə kəşfiyyat işlərində təqsirli bilinən insanların da məhkəmə olmadan sərbəst buraxılmasını istəyir. ABŞ eyni addımı atırmı? Xeyr, atmır. Deyir ki, biz hüquq dövlətiyik və burada hüquq üstünlüyü var. Türkiyə də hüquq dövlətidir və burada da hüququn üstünlüyü var".

**Politoloq söyləyib ki, Türkiyə qarşısında qoyulan bütün şərtlər ABŞ-ın zorakı istəklərindən başqa bir şey deyil:**

“Müstəqil, suveren, iradəsi olan bir dövlət bu addımları atmaz. Bu addımları atacaq olan dövlətlər ancaq və ancaq müstəmləkə olan dövlətlərdir. ABŞ bu gün Türkiyə üzərində öz hakimiyyətini qurmağa çalışır. Deyir ki, Rusiyadan S-400 alma. Tamam, Türkiyə NATO dövlətidir, ancaq NATO ölkələri Rusiya ilə hərbi ticarətə girirlər axı. Bunu bir kənara qoyaq. Türkiyə ABŞ-dan hava hücumundan müdafiə qüvvələri üçün dəstək istədi, ancaq onlar bunu satmadılar. Belə olan halda Türkiyənin başqa yerdən silah almasına nə üçün bu cür yanaşırlar? Bu sadəcə olaraq, Türkiyəyə diktə etməkdir. Türkiyə müstəqil dövlətdir və istədiyi dövlətlərlə də əməkdaşlıq edə bilər. Ərdoğan olmasaydı, başqa biri prezident olsaydı belə, eyni addımı atardı. Burada müxalifət və ya iqtidar məsələsi yoxdur. ABŞ-ın bu qarşıdurmanı qızışdırmaqda rolu çox böyükdür. Hansı bir dövlət qonşu ərazisində, özünün terrorist saydığı qrupların dövlət qurmasına icazə verər? ABŞ icazə verərmi ki, sərhədinin yanında hansısa İŞİD kimi terrorçu dövlət qurulsun? Əsla imkan verməz və deyər ki, bu mənim beynəlxalq təhlükəsizlik sistemimə zidd hərəkətdir. Türkiyənin terrorist saydığı qruplara ABŞ Suriyada dəstək verib, onlara dövlət yaratmağa çalışır. Amerika öz müttəfiqini deyil, Türkiyənin terrorist saydığı qrupları silahlandırdı. Bu da Türkiyənin milli təhlükəsizliyinə zidd olan bir addımdır. İqtidarda kim olsa belə, buna izin verməz. Məsələ bax budur”.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan politoloq Əhəd Məmmədli bildirib ki, Ərdoğan ABŞ-ın dediklərini yerinə yetirsəydi, Türkiyənin dünyada olan nüfuzuna böyük zərbə dəyərdi:** “Ərdoğan artıq elə yolu qət edib ki, o, geri addım ata bilməz. İrəlidə isə onu zəfərmi, acımı gözləyir, bunu söyləyə bilmərik. Əslində rahib məsələsində Türkiyə Amerikaya güzəşt etmişdi. Bəs rahibi ev dustaqlığına buraxmaq nə deməkdir? Təəssüf olsun ki, Tramp bunu güzəşt kimi qəbul etmək əvəzinə Türkiyənin üzərinə gedib, ultimatumlarla danışmağa başladı. Bu adam anlamadı ki, Ərdoğanla belə danışmaq olmaz. Ərdoğan Putin Rusiyasının qırıcısını vuran bir dövlət lideridir. Yəni belə bir liderlərlə istədiyin tonda danışa bilməzsən. Görünür, ABŞ hələ də elə düşünür ki, Türkiyə əvvəlki dövlətdir. Hansı ki, bunların iki generalı gəlib tapşırıqlarını verir, Türkiyə rəhbərliyi də bunu icra edir. Nə vaxta qədər ABŞ bunu anlamayacaq, hər zaman Türkiyə məsələsində uğursuzluğa düçar olacaq. Artıq Türkiyə lirəsi də stabilləşir. Ancaq ABŞ bu hərəkəti ilə bütün dünyanı öz qarşısına aldı. Avropa, Almaniya Türkiyənin tərəfini tutdu. ABŞ bütün dünyanı dollarla şantaj edir. Dünya ölkələri də bunu yaxşı başa düşürlər. Düşünürlər ki, bu gün ABŞ bizi dollarla şantaj edirsə, sabah günümüzü düşünməliyik və dollara alternativ valyuta tapmalıyıq. Məncə, ABŞ bu hərəkəti ilə itirir. 3 gün ərzində ABŞ Türkiyə ilə çəkişməsində milyardlarla dollar itirdi. Yaxşı olar ki, Tramp və onu kürsüyə gətirən yəhudi elitası bir İsrailə görə bütün dünyanı öz qarşısına almasınlar və Türkiyəyə qarşı "səlib yürüşü"nü bitirsinlər. Bu savaşda düşünürəm ki, ABŞ itirən tərəf olaraq çıxacaq".

❑ **Əli RAİS, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018

# İçində insan əti aşkarlanmış kolbasalar Azərbaycana gətirilə bilər - iddia

## Eyyub Hüseynov: "Kolbasa istehsal edən yerli şirkətlərin 80 faizinə ciddi nəzarət yoxdur"

**Rusiyanın ət kombinatlarından biri ilə bağlı ölkə mətbuatında şok məlumat yayılıb. Məlumatda iddia edilir ki, Moskva yaxınlığında fəaliyyət göstərən "Mortadel" ət kombinatında istehsal edilən kolbasaların tərkibində insan əti aşkarlanıb.**



Bildirilir ki, Rusiya Tibb Elmləri Akademiyasının Qida İnstitutunun alimləri həmin kombinatdakı ət məhsulları nümunələrini tədqiq ediblər və tərkibində insan əti olduğu qənaətinə gəliblər. İnsan əti nümunələri iki növ kolbasada - "Kral" və "Dənəvər servalat"da tapılıb. Ekspertlər kolbasanın tərkibinə insan ətinin təsadüfən düşməsi ehtimalını istisna ediblər. Kolbasaların tərkibinə kimsəsiz meyitlərin əti vurulduğu ehtimal edilir.

Maraqlıdır, Azərbaycanın kolbasa sənayesində vəziyyət necədir?

**Mövzu ilə əlaqədar Azad istehlakçılar Birliyinin sədri Eyyub Hüseynovla əlaqə saxladıq. "Yeni Müsavat"a danışan E.Hüseynov bildirir ki, Rusiyada kolbasalarda aşkarlanan insan əti Azərbaycanda istehsal olunan kolbasalarda da müəyyən oluna bilər:** "Yoxlama yoxdur, belə bir şəraitdə Qida Təhlükəsizliyi Agentliyi işə indi başlayır. Belə bir şəraitdə hətta yerli istehsalda (bir neçə kolbasa sexi istisna olmaqla) digərlərində bu cür hala rast gəlinə bilər. Kolbasa istehsal edən yerli şirkətlərdən bir neçə müəssisə "Halal" sertifikatı alsa da, 80 faizinə ciddi nəzarət yoxdur. Elə yerlərdə təhlükəli kolbasalar istehsal oluna bilər. Xaricdən gələn kolbasalarda böyük problem yaşana bilər. Onlar malların ömrünü uzatmaq üçün hər cür inqrediyentlərdən, hətta insan ətindən də təhlükəli kimyəvi elementlərdən istifadə edirlər. Belə kolbasaların gözəl ətri və dadı olur. Əslində isə kimyalaşmış məhsullardır".

**Azad İstehsalçılar Birliyinin sədri yerli kolbasalara üstünlük verir:** "2011-ci ildə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi USAİD bizə müraciət etdi və dünyada ilk təcrübəni həyata keçirməyi təklif etdi. Bu, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması ərəfəsinə hazırlıq idi. Azərbaycan mallarının rəqabətə davamlılıq layihəsi çərçivəsində idi. Biz ilk dəfə olaraq Azərbaycan İstehlakçılarının Qida Təhlükəsizliyi Nişanını dövlət qeydiyyatına aldırdıq və bir neçə müəssisəyə, o cümlədən Azərbaycanda kolbasa istehsal edən "SAB" və "Min bərəkət" şirkətlərinə Azərbaycan İstehlakçılarının Qida Təhlükəsizliyi Nişanını şamil etdik. Orada daim ictimai monitorinqlər aparılır. Ölkədə 20-yə qədər kolbasa istehsalçıları var. Bir çoxu nəzarətdənkənar - harada gəldi, necə gəldi, nədən gəldi, kolbasa istehsal edir və harada gəldi satır. Bunlar artıq təhlükəli kolbasalardır".

**E.Hüseynov Rusiyada aşkarlanmış mal partiyaların Azərbaycana gətirilməsini də istisna etmir:** "Bir sözlə, əhali yerli kolbasalara üstünlük versin. O kolbasa ki, standartlara uyğun hazırlanıb, üzərində istehsal olunma və son istifadə tarixi vurulub, istehsalçı müəssisənin ünvanı, əlaqə telefonu var, tənbəllik etməsinlər, zəng vurub istehsalı barədə maraqlansınlar. İstehlakçı hüquqlarının mühafizəsi haqqında qanunda istehlakçının malın sertifikatını tələb etmək hüququ var, bu hüquqlarında istifadə etsinlər".

**Qida eksperti istehlakçıları diqqətli olmağa çağırır:** "Azad bazar iqtisadiyyatı, biznesə toxunulmazlıq şəraitində təhlükəli kolbasalar və digər mallar əmtəə bazarında var. Kolbasa ilə bağlı bizə həftədə 1-2 şikayət daxil olur. O da etiketi olmayan kolbasalardan olur. Azad İstehlakçılar Birliyi hazırda hazırlaşır ki, "Halal" sertifikatı almış kolbasa müəssisələrində ictimai monitorinq aparsın, monitorinqə kütləvi informasiya vasitələrini cəlb edəsin. Bilmək istəyirik ki, onlar həqiqətən də ekoloji təmiz, halal standartlara uyğun kolbasa istehsal edirlər, ya aldadırlar?"

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

# Dəbdəbəli toylar qadağan edilsə...

## İqtisadçı ekspert və iş adamı vəziyyətdən çıxış yolu haqda danışdılar

**Ötən həftə Naxçıvanda dəbdəbəli toylara qadağa qoyulacağı barədə təsdiqlənməmiş məlumat yayıldı. Məlumata görə, sentyabrın 1-dən etibarən Naxçıvandakı toylarda qonaqlara ancaq çay və şirniyyat təklif olunacaq.**



Məlumatın nə qədər doğru olub-olmaması tam araşdırılmasa da, artıq bu mövzu müzakirəyə çevrilib. Əksəriyyət Naxçıvanda yas mərasimlərindəki israfçılıqla bağlı qadağadan sonra bunun toylara da tətbiq ediləcəyi xəbərini dəstəkləyib.

Məlum məsələdir ki, toylarda israfçılığa son qoyularsa, həm toy sahibləri, həm də toya dəvət almış qonaqlar ağır toy xərcindən xilas olmuş olacaq. Maraqlıdır, bəs bu cür qadağa hansı sektorlara təsir edə və ya onları sıradan çıxarda bilər? Ümumiyyətlə, orta hesabla bir toy bazarlığı üçün nə qədər qida məhsulu lazım gəlir?

**İqtisadçı ekspert Natiq Cəfərli mövzunu bu cür şərh etdi:** "Elə toy var ki, adambaşına 10-15 manata, eləsi də var ki, 150-200 manata başa gəlir. Yəni bu, toydan, toy sahibinin imkanlarından asılıdır. Bahalı toylarda həm ərzaq məhsullarında, həm də digər sahələrdə israfçılığa yol verilir. Ümumiyyətlə, bu sektorda bir düzən etmək çox vacibdir. Lakin elə düşünürəm ki, qadağalardan daha çox, örnəklərlə bu məsələni həll etmək daha yaxşı olardı. Məsələn, tanınmışlar, cəmiyyətin öndə gedən simaları, fikir liderləri bununla bağlı nümunə göstərməlidir. Bildiyiniz kimi, bir müddət bundan əvvəl Türkiyədə də bu cür problem yaşanırdı. Sonradan cəmiyyətin öndə gedən insanları, varlı insanlar örnək göstərməyə başladılar və cəmiyyətdə bir adət yarandı. Azərbaycanda da bu cür ənənənin yaranmasına böyük ehtiyac var. Qadağalar olarsa, bir müddət sonra bu məsələ səngiyəcək, təmtəraqlı toylar yenə dəbə minəcək. Amma bu, bir oturuşmuş qaydaya, dəbə çevrilsə, mədəniyyət formasına çevrilsə, düşünürəm ki, daha qalıcı olar və cəmiyyəti də çoxdan narahat edən məsələ həllini tapacaq.

O ki qaldı məsələnin hansı sektorlara təsir etməsi, bildiyiniz kimi, Azərbaycanda, əsasən də Bakı şəhərində şadlıq evlərinin böyük şəbəkəsi var və bu şəbəkə toy məclislərindən böyük həcimdə gəlir əldə edir. Həmin şadlıq evlərində çoxsaylı insanlar da çalışır və bunu da nəzərə almaq lazımdır. Hesablamalara görə, bu sektorda təxminən 15-20 min insan işləyir, birbaşa və dolayı pul qazanır. Müğənnilər var ki, onlar vergi ödəmir, onların şadlıq evlərindəki işləri rəsmi deyil, müqavilə bağlanılmır, amma minlərlə manat qazanırlar. Bu da nəzərə alınmalı və bu məsələ qanunlaşdırılmalıdır".

**Tanınmış iş adamı, "Xəmsə" MMC-nin sahibi, kənd təsərrüfatı üzrə mütəxəssis Mürvət Həsənli də mövzu ilə bağlı danışdı:** "Öncə onu qeyd edim ki, Naxçıvanda dəbdəbəli toy və nişan məclislərində qadağanın qoyulacağı xəbəri yanlışdır. Çünki mən oradan bir neçə şadlıq evinin sahibləri ilə danışdım, onlar bu məlumatı təsdiqləmədilər. Bildiyiniz kimi, Məhərrəmlik və bunun kimi digər aylarda ölkədə iqtisadi fəallıq tamamilə azalır. Bu, onunla bağlıdır ki, təxminən hələ 300 nəfərlik toyun bazarlıq payı 7-8 min manat olur. Bəy özünə toyluq kostyum, gəlin gəlinlik alır, həmçinin gözəllik salonlarına müraciət olunur, toy maşınları danışılır. Beləliklə, həqiqətən də toy biznesi ölkəmizdə rəngarənglik yaradır. İnanmıram ki, nəinki Naxçıvanda, eləcə də digər bölgələrimizdə toylarla bağlı hansısa qadağa olsun. Bununla belə, mən də toylarda israfçılığa yol verilməsinin əleyhinəyəm. Əgər həqiqətən dəbdəbəli toylara qadağa tətbiq olunarsa, daha çox kənd təsərrüfatı məhsullarının bazarlığına təsir edəcək. Şou-biznes sektoruna isə azacıq təsir edə bilər".

Bir maraqlı məlumatı da əlavə edək ki, artıq iki ildir ki, Dağıstanda dəbdəbəli toylara qadağa qoyulması ilə bağlı maraqlı təcrübə var. Belə ki, orada toy mərasimləri xüsusi qaydalarla keçirilir. Bu qanunu pozanları isə məscidlərin xeyrinə cərimələyirlər. Məsələn, bəyin cehizi gəlinlə nişanlanandan etibarən 4800 dolları keçə bilməz. Eləcə də gəlinin cehizi mütləq şəkildə bu dəyərdən çox olmamalıdır. Hədiyyələrin dəyərinə isə xüsusi komissiya nəzarət edir. Yalnız qiymətlər bu həddi aşmadıqda nikaha razılıq verilir. Bununla bərabər, toy məclisindəki yeməklərin çeşidi 7-ni keçdikdə, digər qaydalara əməl etmədikdə toy sahibləri ərazidəki məscidə 480 dollar cərimə ödəyirlər.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Mingəçevirdəki qəza ilə bağlı yekun rəy bu həftə bilinəcək

## Nazim Məmmədov: "Yekun rəy tam hazır olduqdan sonra dövlət başçısına təqdim olunacaq"

**Mingəçevirdəki enerji qəzası ilə bağlı yaradılmış Dövlət Komissiyası araşdırmaları yekunlaşdırmaq üzrədir.**



Bu haqda modern.az-a Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fizika İnstitutunun direktoru, komissiyanın üzvü Nazim Məmmədov açıqlama verib.

O qeyd edib ki, iyulun 3-də Mingəçevirdəki İstilik Elektrik Stansiyasında (İES) baş verən qəza ilə bağlı Dövlət Komissiyasının bu həftənin sonuna kimi yekun rəyi olacaq.

"Komissiya hadisənin yekun rəyini bitirmək üzrədir. Bildiyiniz kimi, bu ayın 22-23-ü Qurban bayramı ilə əlaqədar qeyri-iş günüdür. Ancaq komissiya həmin günlərdə də işləyəcək. Hadisənin yekun rəyi isə tam hazır olduqdan sonra dövlət başçısına təqdim olunacaq".

Qeyd edək ki, iyulun 3-də Mingəçevirdəki İstilik Elektrik Stansiyasında (İES) baş verən qəza bütün Azərbaycanı zülmətə qərq edədi, dövlətə və əhaliyə böyük ziyan vurdu.

Baş verən hadisə ilə bağlı Energetika Nazirliyi və "Azərenerji" ASC-nin birgə rəsmi məlumatında bildirilib ki, qəza havaların kəskin isti keçməsi ilə əlaqədar olaraq elektrik enerjisinə tələbatın ciddi şəkildə artması (təqribən 40 faiz) və elektrik avadanlıqlarının istismarında açılmalar nəticəsində baş verib.

Hadisədən sonra prezident İlham Əliyevin sərəncamı ilə qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə Dövlət Komissiyası yaradılıb.

Sərəncama görə, Dövlət Komissiyası hadisənin baş verməsi səbəblərini araşdırmalı və bu barədə prezidentə məlumat verməlidir. Qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirilməli və həyata keçirilməli, görülmüş işlər haqqında ölkə başçısına mütəmadi məlumat verilməlidir.

Həmçinin Baş Prokurorluq baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirməlidir.

# Tarif Şurası Aİ-92-nın bahalaşacağına nöqtə qoydu

## "Yaxın günlərdə də Aİ-92 markalı benzinin qiymət artımı ilə bağlı müzakirə nəzərdə tutulmayıb"

**Sosial şəbəkələrdə və bəzi mətbu orqanlarda SOCAR-ın yanacaqdoldurma məntəqələrində Aİ 92 markalı benzinin bir litrinin 1 manata satıldığı barədə məlumat yayılıb.**



Tarif Şurası musavat.com-a açıqlamasında yayılan məlumatların həqiqəti əks etdirmədiyini bildirib:

"Aİ-92 markalı benzinlə bağlı qiymət dəyişikliyi yoxdur. Yayılan xəbərlər həqiqəti əks etdirmir. Yaxın günlərdə də Aİ-92 markalı benzinin qiymət artımı ilə bağlı müzakirə nəzərdə tutulmayıb".

Qeyd edək ki, avqustun 19-da axşam saatlarında Azərbaycanda "Premium Euro-95" və "Super Euro-98" markalı yanacağın qiyməti qalxıb. Yeni tariflərə əsasən, "Premium Euro-95"in satış qiyməti 1,50 manat, "Super Euro-98" markalı benzinin qiyməti isə 1,60 manat olub.

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018

**Bakıda dustaqların qaçması işində adı keçən şəxslərin məhkəməsi davam edir. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində müğənni Fədayə Laçın, Penitensiar Xidmətin konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayev, Penitensiar Xidmətin üç əməkdaşı - qarovul rəisi Ceyhun Səmədov və digərlərinin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

# "Qaçan dustaqlar işi"ndə generalın bacısı oğlu ifadə verdi

## Həbsdəki polkovnik: "Ceyhun özündə deyildi, danışa bilmirdi. Vaqona baxdım, pəncərə 20 santimetr açıq idi"


Etibar Məmmədov

**Təqsirləndirilən qarovul rəisi Ceyhun Səmədov suallara cavab verib. O bildirib ki, dolu bədənli bir nəfər vaqonun qapısını döyərək onu çağırıb:** "Kim olduğunu, komandirimi haradan tanıdığını, nömrəsini necə tapdığını bilmirəm. Telefonda komandirim mənə "Orada imkan yarat görüşsünlər" dedi". Yada salaq ki, qarovul rəisi Ceyhun Səmədov Penitensiar Xidmətin sabiq rəis müavini, ədliyyə general-mayoru Hüseyn Əlixanovun bacısı oğludur. Bu hadisədən bir müddət sonra general yaş həddi ilə bağlı təqaüdə göndərilib.

Məhkəmədə həbs edilənlərdən polkovnik Bəhruz Abdullayev sualları cavablandırıb.

**B.Abdullayev söyləyib ki, təqsirləndirilən şəxslərdən yalnız öz əməkdaşlarını tanıyır. Fədayə Laçını isə yalnız televizorda görüb:** "Heç toyda da görməmişəm. Heç bir əlaqəm də olmayıb".

**"Qoca" ilə Fədayə Laçının görüşünə şərait yaratması haqda suala belə cavab verib:** "Mən Etibara görə xahiş etməzdim. Başqasına görə etsəm də, ona görə etməzdim".

**Suallara cavabında Abdullayev "Qoca" ləqəbli Etibar Məmmədova kömək etməsi məsələsinə münasibət bildirərkən ona nifrət etdiyini deyib.**

**Müttəhim bildirib ki, "Qoca" 1996-cı ildə Penitensiar Xidmətin əməkdaşını naqillə boğaraq qətlə yetirib və müəssisədən qaçıb:** "Mən Etibara nifrət edirdim, çünki mən xidmət etdiyim yerdə əməkdaşımızı öldürmüşdü. Mən həmişə şəxsi heyətə deyirdim ki, dustaq qaçsa, sizi tutacaqlar, məni işdən çıxaracaqlar. Çünki özümün həbs ediləcəyim ağlıma gəlməmişdi. Bundan əvvəl belə hallar olanda rəisi, sadəcə, işdən çıxarırdılar".

**B.Abdullayev çalışdığı müddətdə heç bir nöqsana yol vermədiyini deyib:** "Mənim telefonum sentyabr ayından dinləmədə olub, mən heç bir həbsdə olan şəxslə və ya yaxını ilə əlaqə saxlamamışam. Çünki məsuliyyətimi dərk edirdim. Mən 21 il ancaq konvoyda işləmişəm, leytenantlıqdan bu rütbəyə qalxmışam. Həbsdə olan şəxsləri etap edəndə biz səhər saat 10-dan gecə saat 2-nin yarısına kimi işdə olurduq. Mən saat 7-yə 20 dəqiqə işləmiş işdə olurdum. Səhər tezdən qarovul rəisi zəng edib dedi ki, Məmmədov Etibarı Lənkəran polisi qəbul etməyib. Mən Etibara görə hakim Asim Hacıyevlə danışdım, çox xahiş etdim ki, bu məsələni həll etsin. Sonra Asim müəllim dedi ki, həll etdim, Astara qəbul edəcək. Elə də oldu. Daha sonra mənə heç bir zəng olmadı, dustaqların hərəkəti ilə bağlı hər hansı məruzə edilmədi. Səhər tezdən 7-yə işləmiş Ceyhun mənə zəng etdi, telefonu açan kimi "Salamatçılıqdırmı" deyə soruşdum, Ceyhun "Yox, dustaq qaçıb" dedi. Mən qəhərləndim, dedim, vaqondan da dustaq qaçarmı? Sonra əməliyyat rejim rəisinə məlumat verdim. Təkrar Ceyhunla danışıb qaçanların Etibarla Ağami olduğunu bildim".

**Daha sonra vaqonun parka getdiyini deyən B.Abdullayev əsəbi olduğundan iki əməkdaşına sillə vurduğunu deyib:** "Ceyhun özündə deyildi, danışa bilmirdi. Vaqona baxdım, pəncərə 20 santimetr açıq idi. Orada özümü saxlaya bilmədim, Fuadla Elvinə sillə vurdum, bir az sonra rəhbərlik gəldi, həbsdə olan şəxsləri maşınlara yığdılar. Qarovul heyətinin silahları alınıb, özləri baş idarəyə aparıldı. Həmin gün axtarış-əməliyyat qərargahı yaradıldı, Fədayənin görüşünə mən icazə versəydim, onu da Etibarın yaxın ətrafı siyahısına daxil edərdim. Səhəri gün Baş Prokurorluğa çağırılıb şahid kimi ifadə verdim".

**İstintaqda verdiyi ifadəsi ilə məhkəmədə verdiyi ifadəsi arasında ziddiyyətin olmasını B.Abdullayev belə izah edib:** "Mən dediklərimi nöqtəsinə, vergülünə qədər danışa bilərəm. Bəli, imzalamışam. Amma elə ifadə verməmişəm. Məhkəmədə nə demişəmsə, elədir".

B.Abdullayev hadisədən sonra nazir müavini tərəfindən çağırıldığını və xidmətdən xaric edildiyi barədə məlumat verildiyini söyləyib.

Polkovnik həbs edilənə kimi olanları ancaq mətbuatdan izlədiyini bildirib.

Səs-küylü hadisə ötən il oktyabrın 23-də baş verib. Bakı-Astara-Bakı planlı dəmir yolu qarovulu ilə xüsusi təyinatlı vaqonda Bakı şəhərinə etap olunan xüsusilə ağır cinayətlərlə təqsirləndirilməklə həbs edilmiş "Qoca" ləqəbli Etibar Ələkbər oğlu Məmmədov və Əli Rasim oğlu Ağami Biləcəri qəsəbəsi ərazisində müşayiət altından qaçıblar.

Vəzifə borclarını lazımınca yerinə yetirmədiklərinə görə ədliyyə nazirinin əmri ilə Penitensiar Xidmətin Konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayev və taborun qərargah rəisi vəzifəsini icra edən, ədliyyə mayoru Hikmət Sadıqov ədliyyə orqanlarından xaric edilib, taborun 2-ci konvoy bölüyünün komandiri, ədliyyə kapitanı Ruslan Zeynalov, 3-cü bölüyün komandiri, ədliyyə kapitanı Rza Xankişiyev və Qərargah rəisinin konvoy xidməti üzrə baş köməkçisi, ədliyyə kapitanı Rakif Məmmədov tutduqları vəzifədən azad olunublar.

Bildirək ki, mühafizə altından qaçan Əli Ağami həbs olunub, kriminal aləmdə "Qoca" ləqəbi ilə tanınan Etibar Məmmədov isə hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat zamanı öldürülüb. "Qoca" ilə sevgi münasibəti olan müğənni Fədayə Laçın da ona kömək etdiyi üçün həbs edilib. Əli Ağami və "Qoca" adam öldürməyə görə həbs edilmişdilər. Əli Ağami törətdiyi əməl görə 19 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Musavat.com**

# Qum-çınqıl işinə görə tutulanların əmlakına həbs qoyulub

## 6 vəzifəli şəxs barəsində cinayət işi məhkəməyə göndərildi

**Qum-çınqıl karxanaları ilə bağlı cinayət işinin istintaqı tamamlanıb. Baş Prokurorluqdan müsavat.com-a verilən məlumata görə, ölkəmizdə ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülməkdədir.**



Xəbər verildiyi kimi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən respublikanın ayrı-ayrı rayonlarında yerləşən qum-çınqıl yataqlarında karxanaların fəaliyyətinin monitorinqi nəticəsində bəzi dövlət orqanları və sahibkarlıq subyektləri tərəfindən yerin təkinin qorunması, xüsusən çay yataqlarının istifadəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydalar və lisenziyalaşdırma şərtlərinin kobud surətdə pozulması, bunun nəticəsində ətraf mühitə, su təchizatı şəbəkələrinə, hidrotexniki qurğulara və sahil bərkitmə bəndlərinə ciddi təhlükənin yaranması, çay məcralarının kəskin eroziyaya məruz qalması müəyyən edilib.

"Göyçay qum-çınqıl" yatağında fiziki və hüquqi şəxslərə məxsus karxanaların fəaliyyətində aşkarlanmış qanun pozuntuları ilə bağlı toplanmış materiallar əsasında Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 247-ci (işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və digər maddələrlə başlanmış cinayət işlərinin istintaqı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.

Həmin cinayət işlərindən daha 1-i ayrıca icraata götürülərək istintaqı tamamlanıb.

Qeyd edilən iş üzrə aparılmış istintaq zamanı ayrı-ayrı fiziki və hüquqi şəxslərin vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə müvafiq icra hakimiyyəti orqanından lisenziya almalı olduğu halda, buna əməl olunmaması, dağ-mədən obyektlərinin istismarı zamanı ətraf mühitin qorunması qaydalarına riayət edilməməsi, eləcə də lisenziyalaşma şərtlərini pozmaqla qanunsuz sahibkarlıq fəaliyyətlərini davam etdirmələrinə əsaslı şübhələr müəyyən edildiyindən "ATF" MMC-nin təsisçisi və faktiki rəhbəri Fəxrəddin Muradov, "Elnicat" MMC-nin direktoru Bəhruz Sadayev, fiziki şəxslər Natiq Zakirov və Nazim Qasımov, "Azpod" MMC-nin qum-çınqıl istismarı sahəsinin rəisi Nəcməddin Əliyevə Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə ittiham elan edilərək barələrində məhkəmənin qərarları ilə həbs, "Azəraqrartikinti" ASC-nin Göyçay qum-çınqıl filialının istehsalat rəisi Allahverdi Allahverdiyevin barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Qeyd olunan cinayət işləri üzrə qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində təbiətə və dövlətə 5,5 milyon manat məbləğində maddi ziyan vurulması, habelə 44 min manat məbləğində vergidən yayınma halları müəyyən edilib və istintaq zamanı dəymiş ziyanın bir qisminin ödətdirilməsi təmin olunub. Qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə fiziki və hüquqi şəxslərə məxsus əmlak üzərinə həbs qoyulmaqla cinayət işi baxılması üçün aidiyyəti məhkəməyə göndərilib.

Hazırda respublikanın digər bölgələrində bu sahədə yol verilmiş qanun pozuntuları ilə bağlı istintaqı aparılan digər cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

**Elan**

**Ağdaş rayon Dəhnə Xəlil kənd sakini Abdulleyav Nəcəf Əli oğluna məxsus JN 310F saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 177 (7066) 21 avqust 2018

# "Qarabağ"a dəstək vaxtı və

## Təsəvvür edin ki, hətta Avropa Liqasının qrupuna düşəcəyi halda bunu yenə klubun uğursuzluğu kimi qiymətləndirənlər var...



# Rəşada münasibətdə "nemes" olmayaq...

**Çempionlar Liqasında mübarizəni dayandıran təmsilçimiz "Qarabağ" sabah Avropa Liqasının pley-off mərhələsində Tiraspolun "Şerif" klubu ilə qarşılaşacaq. Yada salaq ki, Tiraspol təmsilçisi Avroliqanın üçüncü təsnifat mərhələsində İslandiyanın "Valyur" klubunu mübarizədən kənarlaşdırıb. İlk oyunda 1:0 hesabı ilə qalib gələn "Şerif" cavab matçında 1:2 hesabı ilə uduzsa da, səfər qolu sayəsində mərhələ adlayıb.**

"Şerif"in Ağdam klubu ilə qarşılaşması Bakı vaxtı ilə saat 21:00-da başlayacaq. UEFA-nın rəsmi saytının yaydığı xəbərə görə, Tiraspol şəhərində keçiriləcək ilk matçı avstriyalı hakimlər briqadası idarə edəcək. Görüşün əsas hakimi Harald Lexner olacaq. Ona Andreas Heydenrex, Maksimilian Kolbim və Yulian Veynberger kömək edəcəklər. Oyunun hakim-inspektoru ukraynalı Vladimir Petrov, UEFA nümayəndəsi isə finlandiyalı Teuvo Holopaynedir.

"Qarabağ"ın rəqibi 17 turdan sonra Moldova çempionatın lideridir. "Qarabağ" isə Azərbaycan çempionatında ilk oyununu keçirib və "Səbail" i Mahir Mədətovun iki qolu ilə məğlub edib.

***

## "Rəşad Sadıqov hətta karyerasında qazandığını yavaş-yavaş "xərcləyir" ki..."Qarabağ"a bir faydası dəysin"

Son günlər "Qarabağ"ın ÇL uğursuzluğu ilə bağlı mediada çoxsaylı mövqelər dərc edilir. Rəşad Sadıqovla bağlı müzakirələrə qoşulmaq fikrim yoxdur, zamanında Azərbaycan futbolunun bu əfsanəvi müdafiəçisinin getmək zamanı olduğu haqda yazmışam. Amma o yazı mili komandadakı çıxışına aid idi. Rəşadın "Qarabağ"da qalmasını indiki vaxtda vacib edən səbəbləri görməyə nə var ki? Adam hətta karyerasında qazandığını yavaş-yavaş "xərcləyir" ki..."Qarabağ"a bir faydası dəysin. Mən Qurban Qurbanova bu məsələdə haqq verirəm. Rəşad hələ "Qarabağ"a lazımdır. İradlar və tənqidləri də, Rəşadın xidmətlərini də gözardı etmək olmaz. BATE ilə oyunda buraxılan səhvləri yalnız Rəşada bağlamaq obyektiv qiymətləndirmə deyil ki, bunu ötən yazılarımda qeyd etmişəm. Məsud Özili almanlar necə urvatsız yola saldılar. Biz də Rəşada münasibətdə "nemes" olmayaq...

***

Həm "Qarabağ"ın ÇL, həm klublarımızın Avroliqada uğursuz çıxışı ilə bağlı əsas fikir budur ki, Azərbaycan çempionatının səviyyəsi aşağıdır, azarkeşlər stadiona gəlmir və sair... Bu iradların haqlı olan tərəfləri var. İş elə gətirdi ki, həftəsonu Azərbaycan çempionatı ilə yanaşı, Rusiya və bir neçə Avropa klublarının oyunlarına baxası oldum. Avropanın nəhəng klublarının oynadığı İngiltərə, İspaniya və İtaliya çempionatlarının səviyyəsini nə bizimlə, nə Rusiya ilə müqayisə etmək işimizə yaramaz. Stadionlar dolu, ulduzlar meydanda "bərq vurur". Həm "Qarabağ"ın, həm "Neftçi"- "Qəbələ" matçında isə azarkeşlər az idi və...



Bu "və"ni uzatmadan deyim ki, hər iki oyun maraqlı keçdi, xüsusilə Bakı klubunun "Qəbələ" ilə qarşılaşması. Yəni çox pessimist olmağa dəyməz. Avropa səviyyəsində çempionat keçirmək üçün bir neçə mühüm şərtlər var ki, bunun nə Azərbaycan futbolçuları, nə məşqçiləri, nə azarkeşlər ilə əlaqəsi yox. Baxın, 8 klubdan yalnız "Qəbələ" ev oyunlarını əyalətdə keçirir. Qalan klublar Bakı və Sumqayıtda oynayır. Məncə, futbol əyalətlərə yayılmayınca, stadionlar da boş qalacaq. "Xəzər-Lənkəran"ın güclü vaxtını yada salın. Lənkəran stadionunda həmişə anşlaq olurdu. Fərz edək ki, İtaliyada A seriyasında klubların yarıdan çoxu paytaxtı təmsil edir, o oyunlara maraq indiki kimi olardımı? Buraxın əyalət klublarını yüksək divizionda oynasınlar. Başa düşürük, UEFA-nın şərtləri var klublarla bağlı, stadionlarla bağlı. Pulları elə ora yatırın də... Təəssüf ki, yerli biznesmenlər də futbola pul yatırmır və bunun səbəbini özlərindən soruşsan yüz haqlı səbəb də deyəcəklər. Qınamalı da deyil.



Avropada stadiona getmək kimi bir ənənə formalaşıb. Ailələr, dostlar, azarkeşlər və sair toplumlar bunu həm də bir istirahət bilirlər. Bizim camaatı başa düşün e, tənqid etməklə deyil. Camaatın nə qədər qayğıları var... Sovet adamı da problemsiz deyildi, amma bu qədər qayğısı yox idi. Ona görə stadiona getməyə də vaxt tapırdı. Guya "Neftçi" o vaxt "qan-qan" deyirdi ki... O vaxt da uduzurdu, amma stadiona yenə azarkeş indikindən on dəfə çox gedirdi. Yəni səbəbi təkcə futbolçular da, klublarda, hətta AFFA rəhbərliyində də axtarmaqla heç nə düzələn deyil. Əvvəl dünyamız düzəlməlidir, Qarabağ qaytarılmalıdır, millət özünə gəlməlidir ki, həm yaxşı klubun, həm dolu stadionun olsun. Gəldik yenə Qarabağın və "Qarabağ"ın üzərinə...

***

"Şerif"lə ötən il ÇL qarşılaşmalarında bir xeyli həyəcan keçirdik. "Qarabağ" Bakıda qolsuz heç-heçə etsə də, Tiraspolda 2:1 qalib gələ bildi. "Şerif"in yeni məşqçisi olsa da, klubun "Qarabağ"dan üstün oynadığını düşünmürəm.

"Qarabağ"a son vaxtlar psixoloji bir basqı da var ki, məncə, bunları da dayandırmaq lazımdır. Təsəvvür edin ki, hətta Avropa Liqasının qrupuna düşəcəyi halda bunu klubun uğursuzluğu kimi qiymətləndirənlər var. Bu qədər də olmaz! Bu iddialara "Qarabağ"ın legioneri Miçelin cavabı xoşuma gəldi. O səbəbdən sitatı olduğu kimi verirəm: **"Bunu kim deyir?! Elə dediniz ki, sanki neçə illərdir Çempionlar Liqasının qrupunda oynayırıq və artıq Avroliqada qrupa düşməyi uğur saymırsınız. Cəmi 1 il Çempionlar Liqasında oynamışıq. Bu il alınmadı. Mən belə düşünmürəm. Avropa Liqası da Azərbaycan üçün ciddi yarış sayılmalıdır. Orada da möhtəşəm komandalar var".** Miçel tam haqlıdır və onun dediklərinə qoşuluram. ÇL məlum, bir brenddir. Amma niyə unuduruq ki, "Neftçi", "Qarabağ", "Qəbələ" Avroliqa qrupuna vəsiqə qazananda necə sevinirdik. Şəxsən mən yenə "Qarabağ"ın qrup mərhələsinə vəsiqə qazanamasını eyni həyəcanla gözləyirəm. Heç klubları demirəm, Almaniya dünya çempionu titulunu Rusiyada necə biabırçı təhvil verdi? Olmayınca-olmur da qardaşlar...

"Qarabağ" ÇL qrupuna bu il düşə bilmədi, bunun üçün yetərincə də səbəb vardı. Amma Avropa Liqasına mütləq vəsiqə qazanacaq. İnşallah, iki oyunun nəticəsinə görə də Avropa Liqasının qrupunda azarkeşləri yenə sevindirəcək.

❑ **Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 177 (7066) 21 avqust 2018

# Kişilər niyə daha çox danışır?

Türkiyənin Hacıtəpə Universitetinin tibb fakültəsinin müəllimi, alim Serkan Karaismayıloğlu sübut edib ki, qadınlar heç də kişilərdən çox danışmırmış. Onun araşdırmasına görə, qadınlar gün ərzində 16 min 215, kişilər isə 15 min 669 sözdən istifadə edir. Alim həmçinin söyləyib ki, beynin də cinsiyyəti var və bu, ana bətnində məruz qalınan testeronla ölçülür: "Kişilərin az danışdığını düşünən varsa, futbol proqramlarını izləsin. Qadınlarda eşitmə və nitq mərkəzləri daha yaxşı inkişaf edib. Kişilərin beyin quruluşu isə eşitməyə uyğun deyil. Belə ki, beynin sol yarımkürəsi daha detallıdır. Danışma, eşitmə və mühakimə solda daha geniş inkişaf edib. Kişidə solda inkişaf gecikdiyi üçün eşitmə məsələsi onlarda



problemlidir. Xüsusən də hansısa işlə məşğul olanda sizi yaxşı eşitməyə bilər. Televizora baxanda nəsə desəniz, sizi eşitməyəcək. Qadınlara məsləhətim: kişiyə nəsə demək istəyirsizsə, qabağında oturun, başını əlinizlə tutun və mümkünsə çox açıq-saçıq geyinməyin, sözünüzü deyin".



## Dünyadakı bütün pivə barlarını gəzməyə söz verib

Britaniyanın Plimut şəhər sakini Ben Kumbs dünyanın ən cənub və ən şimal hissəsində yerləşən pivə barında pivə içmək üçün 37 min kilometr məsafə qət edib. Onun hekayəsini BBC işıqlandırıb. Kumbs etiraf edib ki, bu ideya bir bakal pivə içəndə ağlına gəlib. Onun bu ekspedisiyasının adı "Pubdan puba" (Pub2Pub) adlanır və Arktikanın Şpisbergen adasında başlanıb və Cənubi Amerikanın odlu Torpaq adlanan hissəsində sona çatıb. Britaniyalı bütün yolu TVR Chimaera maşını ilə qət edib. Öz səyahəti ilə bağlı gənc facebook səhifəsində və öz saytında yazıb. Onun marşrutundakı ən cənub pivəxana Şpisbergen adasındakı Piramida qəsəbəsində olub. Kubs deyib ki, orada daim 4 nəfər olur. Onların hamısı köhnə bir hoteldə yaşayır ki, şəhərin yeganə barı da orada yerləşir.

Öz gəzintisi zamanı ingilis öyrənib ki, Antarktidada da barlar var. Amma orda onlar ya qeyri-leqal çalışırlar, ya da əsasən qapalı məkanlar olur.

Dünyanın ən cənub pivəxanası britaniyalının xoşuna gəlməyib. Belə ki, orda nə pivə dadlı olub, nə də ətraf mühit gözəl. Pivəxanada masalar plastik olub. "Bu, ən maraqlı yer olmasa da, onun üçün 37 min kilometrlik məsafə qət etdiyimə görə peşman deyiləm. Önəmli olan yerin necə olması yox, səyahətin uğurla həyata keçirilməsidir".

## Qorxan qadının qoxusu da dəyişir

Amerikalı alimlər müəyyən edib ki, qadının qorxması təkcə onun hal və hərəkətlərində yox, eyni zamanda qoxusunda da özünü göstərir. Bu vəziyyətdə olan qadından analoqu olmayan özünəməxsus qoxu gəlir. Alimlərin fikrincə, sarsıntının təsiri altında qadın bədənində qoxu dəyişə bilir. İnsan bədənində qoxunun sahəsində tanınmış mütəxəssis doktor Süzan Bile-Xulettin başçılığı altında bir qrup bu məsələni araşdırıb. Məlum olub ki, istidə və ya fiziki işlər görərkən ayrılan tər qoxusu stress zamanı əmələ gələndən fərqlənir.

Alimlər 44 qadından 3 fərqli şəraitdə (isti havada, idman edəndə və stress halında) tər nümunələri götürüb, təhlil ediblər. Stressin aromatının o birilərindən fərqləndiyi aşkarlanıb. Kişilər sterss qoxusunu qadın tərləyən zaman ayrılan tər iyindən daha pis qarşılayır.

Alimlərin araşdırmasına əsasən, fiziki iş görəndə və isti havada tər vəziləri ekzokrin şirəsi, stress zamanı isə apokrin vəzisi şirəsi ifraz edir. Məhz bu şirə bakteriyalarla qarışaraq, xoşagəlməz qoxu yaradır.





## Stulun içindən brilyant tapdılar

Şotlandiyanın Biqqar şəhərində bir cütlük 5 funt sterlinqə satın aldığı stulda 5 min funt sterlinq dəyərində brilyant bəzək tapıb. Anjela Milnet və onun həyat yoldaşı Enqus bu stulu 10 il əvvəl bir auksiondan alıblar. Həmin vaxt onların imkanı olmadığı üçün başqa stullar ala bilməyiblər və onu çardağa yerləşdiriblər. Aradan 6 il keçəndən sonra cütlük həmin stulu çardaqdan götürüb. Bir müddət sonra Enqus həyat yoldaşına evlilik ildönümü münasibətilə brilyant qaşlı üzük, ardınca isə Sevgililər günündə brilyant qaşlı sırğa hədiyyə edib. Pasxa bayramındakı hədiyyə isə qiymətli daşlarla bəzədilmiş sancaq olub. Sonradan məlum olub ki, ərin bu cür səxavətli davranmasına səbəb stulun içindən tapdığı brilyantlar olub. O, bu barədə öncə xanımına deyib, daha sonra isə məşhur bir proqramda danışıb.




**QOÇ** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**BUĞA** - Bu təqvimdə uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Əgər başqa vaxta saxlasanız, səmərəli olmayacaq. Bağ-bağatda işləmək üçün bu təqvimin böyük əhəmiyyəti var.

**ƏKİZLƏR** - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə tam ümidlə baxın.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.

**ŞİR** - Bürcünüzün ən uğurlu məqamlarını yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.

**QIZ** - Qonaq getmək üçün günün ikinci yarısı münasibdir. Amma hər hansı fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Ailə münasibətlərində obyektiv addım atın.

**TƏRƏZİ** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ƏQRƏB** - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.

**OXATAN** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**OĞLAQ** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Axşama doğru qazanmaq ehtimalınız var.

**SUTÖKƏN** - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə artım da mümkündür.

**BALIQLAR** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki həftə boyu bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu rahibin videosu dünyanı şoka salıb

İngilis kilsəsinin rahibi narkotikdən istifadə edərkən yaxalanıb. Onu bu işi görərkən videoya çəkiblər. Kadrlardan görünür ki, Stennet Kirbi dostu ilə birlikdə kokain çəkir. Eyni zamanda o, pornoqrafiyaya da baxaraq dostuna pulu olsa idi, evə əxlaqsız qadın çağırmaq istədiyini deyir. Bütün bunlar rahibə hədiyyə edilən, dəyəri 1.5 milyon funt olan evdə baş verir. Kirbi Vestxem şəhərində 2007-ci ildən rahib kimi çalışır. Çəkiliş baş tutan günlərdə isə o, müalicə üçün icazəyə çıxmışdı. Kilsənin rəsmi nümayəndələri deyiblər ki, roliki görüblər, daxili araşdırmaya başlayıblar və məsələyə "olduqca ciddi yanaşırlar". Fevralın əvvəlində isə məlum olmuşdu ki, Tailanddakı buddist monarx qadın alt paltarları oğurlayır. Məbədin rəhbərliyi bu hadisədən xəbər tutan kimi oğrunu qovub.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100